بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

İBRƏTLİ HEKAYƏLƏR

Peyğəmbər (s) və İmam (ə) səhabələrinin həyatlarından hekayələr

I cild





Peyğəmbər (s) və İmam (ə) səhabələrinin həyatlarından hekayələr

Müəllif: Məhdi Vəhidi Sədr
Mətinlərin elmi mütəxəssisi: Muhəmməd Hadi Yusifi Qərəvi
Rəsimlər üzrə mütəxəssis: Seyyid Muhsin Musəvi
Redaktor: İftixar Məhəmmədov
Layihə rəhbəri və icraçı: "Simaye Nure Kovsər" şirkəti
Rəssam: Həkimə Şərifi Rəngkar: Zəhra Səmavati
Naşir: Dünya Əhli-beyt (ə) cəmiyyətinin mədəni-maarif şöbəsi
Yeni üslubda tərtib edib çap edən: Gürcüstan Müsəlmanları İdarəsi
Tiraj: 1000

QÖNÇƏ TƏBƏSSÜM



Qureyş qəbiləsində paklıqda və nəcabətdə Aminəyə çatan bir qız tapılmazdı.

O, cahiliyyət dövründə yaşamasına baxmayaraq, heç vaxt öz zəmanəsinin günahlarına aludə olmamışdı. Camaatın bütə sitayiş edib Allaha şərik qoşduğu, öz qız uşaqlarını diri-diri torpağa basdırdığı bir vaxtda, Aminənin atası qızını öz canı qədər sevər və ona çox ehtiram göstərərdi. Vəhəb həmişə bu cür övlada sahib olduğu üçün iftixar edib, o alicənab xanımın məqamını dərk edirdi. Daşdan və taxtadan düzəldilmiş bütlərə səcdə etmək yayıldığı, təkallahlığın unudulduğu bir zamanda, Məkkə əhalisinin yediklərinin haram və murdar olduğu bir dövrdə Vəhəb və onun ailəsi ən pak, ən sağlam yeməklərdən istifadə edirdi. Ehsan və səxavətdə, həmçinin, çarəsizlərin və fəqirlərin əlindən tutmaqda hamıdan qabaqda idilər. Qureyş qəbiləsi də öz növbəsində Vəhəb və onun ailəsinə çox ehtiram göstərir, onları Məkkənin ən şərəfli ailəsi hesab edirdi.

Vəhəb Bəni Zöhrə qəbiləsindən idi və Qureyş qəbiləsinin böyüklərindən, rəislərindən hesab edilirdi. O, şücaət və iffətdə, əmanətdarlıqda və bəxşişdə, məhəbbət və şərafətdə də misilsiz idi. Aminə belə bir bərəkətli atanın pənahında yaşayır, ömür sürür və onun əhatəli himayəsindən bəhrələnirdi. Tək Tanrıya və İbrahimin (ə) dininə etiqad bəsləmək, şərəfli ailədə yaşamaq və halal ruzilərdən bəhrələnməklə bu qız elə bir tərbiyə almışdı ki, Qureyş qəbiləsi belə bir gövhərə sahib olmaq üçün həsrət çəkirdi.

Aminə pak və pakizə bir xanım idi. İxlas və bəndəlikdə Ərəbin heç bir qadını və qızı onun məqamına çata bilməzdi. Aminə tək Allaha etiqad bəsləməkdə, pəhrizkarlıqda, camal və həyada, böyüklükdə, kamalda, mehr və nəcabətdə də misilsiz idi. Vəhəb də öz növbəsində bu dürdanəsindən xidmət və məhəbbətini əsirgəməzdi.

Və Allaha belə bir övlad nəsib etdiyi üçün şükür edərdi. Qureyş camaatının çoxu o müdrik xanımın məqam və böyüklüyünü bilmir, onun parlaq gələcəyindən xəbərsiz idi.

Aminənin özünəməxsus xüsusiyyətlərinə görə həmişə elçiləri çox olardı. Onun həyat yoldaşı olmağı çoxları arzulayırdı.

Çox vaxt onlar elçilik üçün Vəhəbin yanına gəlirdilər. Amma hər

dəfə bu alicənab xanım rədd cavabı verərək buyurardı: “Hələ mənim evlilik vaxtım gəlib çatmayıb”.

Məkkənin əyan-əşrəflərinin hər biri təklikdə Aminənin atası ilə söhbət edər və elçilikdən söz salardı. Amma onların istəkləri heç vaxt nəticə vermirdi.

Günlərin bir günü Əbdülmüttəlib Vəhəbi görməyə getdi. Əbdülmüttəlibin görüşündən çox xoşhal olan Vəhəb o alicənabı çox məhəbbətlə qarşıladı və onun üçün geniş bir ziyafət təşkil etdi. Uzun-uzadı söhbətlərdən sonra Əbdülmüttəlib Vəhəbə dedi: “İcazənizlə, qızınız Aminəni oğlum Abdullah üçün istəməyə gəlmişəm”. Bu sözü eşitməkdən çox şad olan Vəhəb dedi: “İndi bu məsələni qızımla danışıb onun fikrini öyrənərəm”.

Abdullah da Ərəb cavanları arasında o qədər dillər əzbəri və məşhur idi ki, qızların çoxu onunla evlənməyi arzulayırdı. Amma Abdullah onları qəbul etmir, rədd cavabı verirdi.

Qureyş qızları Abdullahın nəcibliyinə, paklığına, gözəlliyinə heyran qalmışdılar və onunla evlənmək arzusunda idilər. Amma Abdullah İlahinin təqdirini gözləyir, həmişə Allahın istəyini nəzərə alırdı. Vəhəb bu təklifi qızına verdiyi zaman Aminə utanaraq yeni elçiyə müsbət cavab verdi və öz razılığını bildirdi. Ondan sonra Abdullah ilə Aminə bir-biri ilə evləndilər və gözəl bir aləmin əsası quruldu. Bir müddətdən sonra Aminə övlad gözləyirdi ki, onu “Muhəmməd” adlandıracaqdılar. Bəli, Aminə ana oldu, peyğəmbərlərin sonuncusunun anası! Əvvəlcədən ona müjdə verilmişdi ki, bir gün övladın peyğəmbərliyə yetişəcək, Aminə və bundan sevinərək övladının dünyaya gəlməsini gözləyirdi. Amma həzrət Muhəmməd (s) dünyaya gəlməmişdən öncə Abdullah dünyasını dəyişdi və Aminə böyük bir qəmlə tənha qaldı. Nəhayət, atasının ölümündən bir müddət sonra Muhəmməd Mustəfa (s) dünyaya gəldi və dünyanın gözü onun müqəddəs vücudu ilə işıqlandı. Həqiqətən də, Aminə Muhəmməd adlı mirvari üçün bir sədəf idi.

Bir neçə il keçdi. Həzrət Muhəmməd böyüdü. O həzrət (s) altı yaşına çatanda əziz anası Aminə ilə birlikdə Yəsrib şəhərinə səfər edir. Bu zaman anası xəstələnir və yatağa düşür. O alicənab xanım ömrünün sonuncu günlərini yaşayırdı. Əziz övladına baxa-baxa bu şeiri zümzümə edirdi:

"Əgər yuxuda gördüyüm doğru olsa, sən bəndələr üçün seçilmiş həmin peyğəmbər olacaqsan. Məkkədə və ondan başqa yerlərdə tovhid və İslama – saleh baban İbrahimin (ə) dininə dəvət üçün məbus olunacaqsan. Allah səni bütləri sevməkdən və onlara pərəstiş etməkdən qorumuşdur".

Sonra belə davam etdi:

"Hər bir diri öləcək və təzə olan hər bir şey köhnələcək. Mən öləcəyəm, lakin adım əbədi qalacaq, çünki dünyaya saleh bir övlad gətirmişəm".

Az sonra Aminə xəstəlikdən dünyasını dəyişdi və "Əbva" adlanan yerdə torpağa tapşırıldı. Amma nə vaxta qədər ki, Muhəmmədin (s) adı minarələrdən ucalacaq, alicənab anasının adı və xatirəsi də həmişə yaddaşlarda yaşayacaqdır.

Mənbələr:

Məclisi, "Biharul-ənvar", səh. 71
Qummi, "Kuhlul-bəsər", səh. 51-57
Əmin Amuli, "Ə'yanuş-Şiə", c.1, səh.219
Yusifi Ğərəvi, "Məvsuətut-tarixil-islami", c.1, səh. 283

Qısa tanışlıq:

Adı – Aminə
Atasının adı – Vəhəb
Təvəllüdü – Hicrətdən 76 il əvvəl
Vəfatı – Hicrətdən 46 il əvvəl
Ömrü – 30 il
Məzarı – Mədinə yaxınlığında yerləşən "Əbva" məntəqəsində

ŞƏFQƏTLİ DAYƏ



Həzrət Muhəmmədin (s) doğumundan uzun müddət keçməmişdi. Məkkənin əyanları öz övladlarını səhrada yaşayan dayələrə tapşırırdılar ki, onlara səhra havasında və Məkkə mühitindən uzaq bir yerdə ərəb dilini öyrətsinlər.

Peyğəmbərin (s) babası və himayəçisi olan Əbdülmüttəlib onun üçün ləyaqətli bir dayə seçmək fikrində idi. Buna görə də Aminənin mənzilinə bir neçə dayə gəldi, lakin südəmər uşaq onların heç birinin sinəsindən süd əmmmədi.

Bu vaxt Əbdülmüttəlibin dostlarından biri dedi: "Mən ərəb qadınlarının arasında bir xanım tanıyıram ki, hamıdan şirindilli və saleh, əsil-nəcabət baxımından da bütün dayələrdən üstündür". Əbdülmüttəlib soruşdu: "O qadının adı nədir?" Cavab verdi: "Bəni-Səd qəbiləsindən olan Həlimədir". Əbdülmüttəlib Həlimənin atasının yanına getdi və dedi: "İstəyirəm ki, sənin qızını Muhəmməd (s) üçün dayə seçim". Həlimənin atası dedi: "Mənim iki qızım var, onlardan hansını deyirsən?" Əbdülmüttəlib dedi: "Ağıllı, südü çox, təqvalı və daha pəhrizkar olan". Həlimənin atası dedi: "Sizi Həlimən ilə tanış edərəm ki, o, bacısı kimi deyil. Allah Həliməyə ağıl, düşüncə, doğruluq və mehribanlıq bəxş etmişdir".

Həlimə Əbdülmüttəliblə birgə həzrət Muhəmmədi (s) anasından almaq üçün Aminənin evinə getdi, o xoşbəxt körpəni qucağına aldı, Muhəmməd (s) də dayəni görəndə sevindi. Əbdülmüttəlib və Aminə körpələri tərəfindən heç bir etiraz görmədikləri üçün sevindilər və xatircəmliklə Muhəmmədi (s) Həliməyə tapşırdılar. O, Aminənin körpəsini özü ilə yaşadığı yerə apardı.

O gözəl körpənin gəlişi ilə xeyir və bərəkət hər tərəfdən nəinki Həlimənin, hətta bütün Bəni Səd qəbiləsinin həyatına da varid oldu.

Səmadan bərəkətli bir yağış yağdı. Torpaqlar yamyaşıl və bərəkətli oldu. Sürülərdə qoyunların sayı və südü artmağa başladı. Əmin-amanlıq o məntəqəyə hakim oldu. Bütün bu xeyirlər Muhəmməd (s) ibn Abdullahın bərəkətli vücudundan idi.

Şüurlu, səriştəli və Allaha inanan bir xanım kimi tanınan Həlimə bildi ki, bütün xeyirlər o mübarək körpənin ailədə olmasından irəli

gəlir. Buna görə də Həlimə kiçikyaşlı bu körpəyə xüsusi məhəbbət bəsləyərək onu bütün övladlarından daha çox sevirdi.

Çünki onun özünəməxsus xüsusiyyətlərini anlamışdı. Həlimə Aminə xanımın körpəsindən möcüzə, qəribə yeniliklər və heyrətamiz hərəkətlər görürdü.

Sədli Həlimə öz qövmünün ən təmiz və iffətli qadınlarından idi. Buna görə də Allah ona İslamın əziz Peyğəmbərinə (s) süd vermək fəzilətini əta etdi. Həlimə Allah Rəsulu (s) üçün ləyaqətli bir dayə idi.

O, iki il Peyğəmbərə (s) süd verdi və onun kamil surətdə yetişməsi üçün dörd il öz evində saxladı. Bu müddətdən sonra Həlimə onu Məkkəyə apararaq, ana və babasına təhvil verdi. Həlimə Peyğəmbəri (s) böyütmək üçün bütün səy və gücünü işə saldı. Onun Peyğəmbərə (s) qarşı olan məhəbbətini vəsf etmək mümkün deyildi. O, Allah Rəsulunu (s) öz övladlarından üstün tutar və heç vaxt ondan ayrılmazdı. Xüsusən, onun müqəddəs vücudunun bərəkətini gördükdən sonra başa düşdü ki, bu südəmər körpə həmişə Allahın nəzərindədir. O, həmişə Peyğəmbərə xitab edib bu sözləri zümzümə edərdi: "Ey əziz övladım! Səmaların Allahına and olsun ki, sən mənim üçün övladım və gözümün nuru olan Zəmrədən daha sevimlisən!

Görəsən, diri qalıb səni uşaqlıqda gördüyüm kimi, böyüyəndə də görə biləcəyəmmi?!"

Muhəmmədə (s) və ona qulluq etməyə olan məhəbbəti Həliməyə o qədər şövq və həvəs verirdi ki, ondan bir an belə ayrılmaq istəmirdi. Həlimə xanım bilirdi ki, bir gün Muhəmməd (s) böyük bir məqama çatacaq və xalqın yanında cox sevimli olacaq. Çünki onun heç bir rəftarı və sözləri uşaqsayağı deyildi. Söhət edəndə də dili tutulmurdu, həmişə səlist və məntiqli danışırdı. Aminə xanımın övladının böyük ruhiyyəsi və dəqiq dərrakəsi var idi. Buna görə də Həliməni incidə biləcək heç bir iş görmürdü. Muhəmməd (s) uşaq oyunlarının və yüngül rəftarların ardınca getməzdi. Öz yaşıdlarını incitməz, heç vaxt ondan üzr istəməyə məcbur olunan pis bir rəftar görünməzdi.

Yaşının azlığına baxmayaraq, o, tək olan Allaha təvəkkül və diqqətində kamil idi. Həlimə xanım çox təəccüblə görürdü ki, Muhəmmədin

(s) ədəb-ərkan, gözəl əxlaq və davranış cəhətindən heç bir əksikliyi yoxdur. Öyrənmək üçün başqa uşaqlara lazım olan şeylərin heç birinə Muhəmmədin ehtiyac duymazdı.

O daim Allahın xüsusi nəzərində idi. Qadir və güclü olan Allah nazənin bəndəsinə elm, hikmət və ismət bəxş etmişdir. Sədli Həlimə bütün nöqtələrə diqqət yetirmişdi və bircə arzusu Muhəmmədin böyüklüyünü görmək idi.

O, uşağın gələcəkdəki məqam və rütbəsini görmək, onun layiq olduğu izzətinə tamaşa etmək istəyirdi.

İllər ötdü. Həzrət Muhəmməd ibni Abdullah (s) böyüdü, amma heç vaxt o ürəyəyatan məhəbbəti unutmadı. Allahın Rəsulu (s) həmişə o məhəbbətin və fədakarlığın əvəzini vermək fikrində idi. Peyğəmbər Xədicə ilə evləndikdən sonra bir gün Həlimə xanımın yolu Məkkədən düşdü və o, Peyğəmbərin xidmətinə yetişdi.

Həzrət ona ehtiram göstərdi və öz cübbəsini (əbasını) onun üçün yerə sərdi. Həzrət Xədicə də ona qırx qoyun və bir dəvə hədiyyə etdi. Həzrət Muhəmməd (s) bu ehtiramla camaata başa saldı ki, ananın və yaxud analıq edən hər bir şəxsin məqamı nə qədərdir.

Sədli Həlimə elə bir qadın idi ki, Allah Rəsuluna (s) süd vermək iftixarı ona nəsib olmuşdu. O deyərdi: "Muhəmmədi (s) saxladığım bir neçə il ərzində o Həzrətdən (s) çox şey öyrəndim".

O, ömrünün sonuna kimi Allah Rəsuluna çox ehtiram göstərdi.

Mənbələr:

Məclisi, "Biharul-ənvar", c. 15, səh. 342, 344 və 346
Qummi, "Kuhlul-bəsər", səh. 51-57
Muhəmməd Hadi Yusifi Ğərəvi, "Məvsuətut-tarixil-islami", c. 1, səh. 222

Qısa tanışlıq:
Adı – Həlimə
Atasının adı – Abdullah (Sə'd bin Bəkr)
Ləqəb – Sə'diyyə
Qəbilə – Bəni-Sə'd
Məskəni – Məkkə ətrafı

AZADƏ XANIM



Evin kənarında gülüş və sevinc səsləri eşidilirdi. Xidmətçilər, qullar və kənizlər – hamı çalışmaqda idi ki, toy şənliyi yaxşı və şadlıqla keçsin. Şəhər şadlıq və sevinc içində idi. Fəqirlər və yoxsullar bol nemətlərdən bəhrələnmiş Bəni-Haşim ailəsinin şadlığında şənlənirdilər. O toy şənliyinin bərəkətindən Məkkə camaatının hər biri çoxlu bərəkət və xeyir ilə üzləşmişdi. Hər yerdə söhbət Məkkənin ən varlı, ən vacib və ən həyalı xanımının toyundan gedirdi. Hər yerdə Muhəmməd (s) ibn Abdullahın bəyliyindən danışılırdı. Camaat uzun yemək süfrəsinin başında oturur, yemək yeyir, ayağa qalxıb bəylə gəlinin xoşbəxtliyi və səadəti üçün dua edirdi. Çörək, ət, xurma və süd tabaqları qonaqlar arasında paylanılır, hamıya layiqincə qulluq edilirdi. Ən gözəl qohumluq baş verirdi. Onun xeyri, bərəkəti bütün şəhər əhalisinə şamil olmuşdu. Həzrət Xədicə üçün həzrət Muhəmməd (s) kimi həyat yoldaşı və həzrət Muhəmməd (s) üçün də xanım Xədicə (ə) kimi pak və təqvalı xanım tapılmazdı. O iki alicənab ən mübarək birliyi bayram və Allaha şükür edirdilər.

Peyğəmbərin (s) xidmətciləri və dostları arasında Ummu Əymən adlı bir qadın vardı. Bu qadın toy mərasiminin yaxşı keçməsi üçün hamıdan daha çox çalışırdı.

O, işin çoxluğundan yorulub xurma ağacına söykəndi, gözlərini Xədicə xanımın evinə dikdi. Ən pakizə xanım Allahın ən yaxşı bəndəsinin yanında idi. O, xoşhal idi və sevincindən gözləri yaşarmışdı. Elə o halda əllərini səmaya doğru qaldırıb onların hər ikisi üçün dua etdi. Bir anlıq Ummu Əymənin yadına keçmiş günlər düşdü. O günlər ki, Muhəmmədin (s) ata-anasının evinə xadimələk üçün təzə gəlmişdi. Muhəmməd (s) dünyaya göz açmamışdan atası Abdullah dünyasını dəyişmişdi. Aminə xanım da bir neçə ildən sonra vəfat etdi. Ummu Əymən həzrət Muhəmmədin (s) müqəddəs vücudunu qorumaq üçün çox zəhmət çəkmişdi və o alicənabın məqamını kamil surətdə tanıyırdı. O öz-özünə dedi: “Kaş ki, Abdullah və Aminə sağ olaydılar və əziz övladlarının bəyliyini görəydilər. Kaş ki, onlar burada olaydılar, öz əziz və nəcib gəlinlərinə tamaşa edəydilər”.

Evlilik mərasimindən sonra həzrət Muhəmməd (s) Ummu Əymənə buyurdu: "Siz azadsınız, istədiyiniz yerə gedə bilərsiniz". Amma xidmətçi qadın dedi: "İstəyirəm ömrümü sizin yanınızda keçirim". Ummu Əymən beləcə öz xidməti ilə məşğul oldu. O vaxta qədər ki, həzrət Muhəmməd (s) peyğəmbərliyə yetişdi. Ummu Əymən o Həzrətin nübuvvət və peyğəmbərlik məqamında gördüyü zaman canla-başla İslam Peyğəmbərinə iman gətirdi. Bir an da olsun, Həzrətin (s) məqamına şəkk etmədi. İslamın zühuru ilə müşriklərin əzab-əziyyət etmələri başlandığı vaxt müsəlmanlardan bir dəstəsi şəhadətə çatdıqda Peyğəmbəri Əkrəm (s) qalan möminlərin canını qorumaq üçün onlara Cəfər ibn Əbu Talibin başçılığı altında Həbəşistan vilayətinə hicrət etmələrini buyurdu.

Həbəşistana hicrət edənlər arasında Ummu Əymən adlı bir xanım da var idi. O, Həbəşistanda bir müddət yaşadıqdan sonra yenidən Məkkəyə qayıtdı və Peyğəmbərin (s) evində xidmətə başladı. Ummu Əymən Peyğəmbərə xidməti ən yaxşı ibadət və iftixar sayırdı.

Banu Ummu Əymən şücaətli, təqvalı, iffətli və mömin bir xanım idi ki, cihadda iştirak edərək yaralılara tibbi yardım göstərir və susuz müsəlmanlara su verirdi. O deyirdi: "Əgər Peyğəmbər (s) qadınlara döyüşmək icazəsi versəydi döyüşərdim və İslam uğrunda mübarizə edərdim".

Müşriklər Uhud savaşını başladıqda, həzrət Rəsuli Əkrəm (s) müsəlmanlardan bir çoxu ilə kafirlərlə döyüşə getdi.

Döyüşdə iştirak edənlər arasında münafiqlər də var idi. Onlar cihadın və döyüşün şiddətli vaxtında Peyğəmbəri (s) tənha qoyub Mədinəyə tərəf qaçdılar və müsəlmanların arasında "Muhəmməd öldürüldü" – deyə, fəryad çəkdilər.

Xanım Ummu Əymən o qorxaq və fərari dəstənin İslam Peyğəmbərinə (s) arxa çevirdiyini görəndə bir ovuc torpaq götürüb onların gözlərinə çırpdı və dedi: "Siz qorxaqlar gərək evdə oturub sap əyirəydiniz. Sizin döyüş və müharibə ilə nə işiniz? Utanmırsınız ki, Allah Rəsulunu (s) düşmənlərin arasında tənha qoydunuz?! Ar olsun sizə!

Əgər müsəlman olsaydınız, bu cür pis işlər görməzdiniz".

Ummu Əymənin adı Bərəkə idi. O, Allah Rəsulunun (s) əli ilə azad olmuş bir kəniz idi və Peyğəmbərin (s) mövludundan əvvəl Abdullahın - Peyğəmbərin (s) atasının evində xidmət edirdi. Peyğəmbər (s) Bəni-Səd qəbiləsindən qayıtdıqdan sonra bu saleh qadın Peyğəmbərin (s) xidmətcisi və tərbiyəçisi oldu. O həzrətin (s) cavanlıq yaşına qədər, hətta risalət və nübuvvət dövründə belə öz xidmətini ondan əsirgəmədi.

Rəvayətlərdə gəlmişdir ki, Həzrət Məhdinin (ə.c) zühuru dövründə xanım Ummu Əymən o Həzrətin (ə.c) köməkçilərindən biri olacaqdır. Bu iffətli qadın Əhli-beytin (ə) yanında da yüksək məqama malikdir.

Mənbələr:

Məclisi, "Biharul-Ənvar", c.15, səh.116
Vaqidi Məğazi, c.1, səh. 278
Muhəmməd Hadi Yusifi Ğərəvi, "Məvsuətut-tarixil-islami"

Qısa tanışlıq:

Adı – Bərəkə
Kunyəsi – Ummu Əymən
Vəzifə – Allah Rəsulunun (s) ailəsində xidmətkar kəniz
Vəfat ili – Hicrətin 11-ci ili.

ANALIQ MƏHƏBBƏTİ



Əbu Talib evdə həyat yoldaşını gözləyirdi. Dilinin altında zikr deyir və Allahı ilə raz-niyaz edirdi. Bəzən də aləmlərin Rəbbinin əzəməti qarşısında səcdəyə gedir və yeganə Yaradanı böyüklüklə yad edirdi.

Rəbiəl-əvvəlin 17-ci günü səhər tezdən Əsədin qızı Fatimə xanım Amənə xanıma kömək etmək və həzrət Muhəmmədin (s) viladət anlarını görmək üçün evdən çıxmışdı. Əbu Talib də intizarla onun yolunu gözləyirdi. Nəhayət intizar anları bitdi və Fatimə binti Əsəd gülər üzlə və sevinc dolu qəlblə evə daxil oldu. Əbu Talib soruşdu: "Nə xəbər?" Xanım Fatimə dedi: "Xoş xəbər var! Amənə dünyaya çox gözəl və nurani bir körpə gətirdi. Elə bir körpə ki, ona bənzərini hələ görməmişəm." Bu xəbərdən çox sevincək olan və yoldaşının da belə saleh və pak övlad arzusunda olduğunu duyan Əbu Talib Fatiməyə dedi: "İstəyirsən sənə bir müjdə verim?" Fatimə dedi: "Bəli! O müjdəni eşitməyə müştaqam". Əbu Talib davam etdi: "Bil ki, sən də gələcəkdə bir övlad dünyaya gətirəcəksən ki, bu yeni doğulmuş uşağın vəsisi olacaq".

Fatimə binti Əsəd bu xəbəri öz həyat yoldaşından eşitdikdə Allaha şükür etdi və bunu böyük bir sirr kimi öz qəlbində saxladı.

İllər keçdi. Xanım Fatimə, Əbu Talibin ona müjdə verdiyi övladı dünyaya gətirmə ərəfəsində idi. O, övladını dünyaya gətirmək üçün münasib bir yer axtarırdı. Anbaan onun halı dəyişir, doğum zamanı yaxınlaşırdı. Xanım Fatimə binti Əsəd Kəbə evinə tərəf hərəkət etdi.

Özünü Allah evinin divarına çatdırdı. Kəbənin parçasından yapışıb, bütün ağrı-acılarıyla Allahın dərgahına üz tutdu. Ərz etdi: "İlahi! Mən Sənə və Sənin dərgahından olanlara, peyğəmbərlərə və kitablara, öz cəddimə – "Beytul-Ətiqi"in əsasını qoymuş həzrət İbrahim Xəlilə (ə) inanıram. Bu evin sahibinə və bətnimdə olan körpəyə xatir doğuşu mənim üçün asan et". Fatimə binti Əsədin duası bitər-bitməz Allahın izni ilə Kəbənin divarı aralandı və o seçilmiş xanım Allah evinə daxil oldu. Məkkə camaatı tezliklə bu hadisədən xəbər tutdu. Mehriban

Allah o pak və təqvalı qadının Öz evinə daxil olmasına izn verdi. Heç kəs Kəbənin qapısını açıb içinə baxa bilmədi. Bütün camaat sonrakı hadisələri gözləyirdi.

Xanım Fatimə Binti Əsəd tam üç gün Kəbənin qonağı oldu. Bu müddət ərzində heç kim ondan bir xəbər ala bilmədi. Dördüncü gün Kəbənin divarı aralandı və o qadın qucağında körpəsi Kəbədən çıxdı. Sonra Fatimə Əsəd qızı belə dedi: "Mən özümdən əvvəlki qadınlardan üstün oldum. Çünki (Fironun yoldaşı) Asiyə Allaha gizlində elə bir yerdə ibadət etdi ki, Allah, yalnız çətinlik və məcburiyyət istisna olmaqla, o yerlərdə sitayiş olunmasını xoşlamır.

Məryəm (İmran qızı) qurumuş xurma ağacını silkələdi ki, onun yetişmiş meyvəsindən yesin. Amma mən Allah evinə daxil oldum, Behiştin meyvə və ruzilərindən yedim.

Oradan çıxmaq istədikdə əziz övladım qollarımın arasında olduğu halda qeybdən bir səs eşitdim ki, mənə: "Ey Fatimə! Bu ali övladının adını "Əli" qoy. Şübhəsiz ki, Mənəm üstünlərdən üstün olan Allah və Mən onu Öz Qüdrət, İzzət və Cəlalımdan yaratmışam, Öz ədalətimdən ona ata etdim və onun adını Öz Müqəddəs adımdan qoydum. Onu Öz mübarək əxlaqımla ədəbləndirdim və Öz işlərimi ona etibar etdim. O mənim əzəmətli evimdə dünyaya gəldi.

O, ilk şəxsdir ki, mənim evimin damında azan deyəcək, bütləri sındıracaq və Kəbədən atacaq. O, Məni əzəmət, böyüklük və yega-nəliyimlə yad edəcək. O, bütün məxluqatdan ən seçilmişi və həbibim olan Rəsulum Muhəmməddən (s) sonra imam, başçı və onun vəsisi olacaqdır. Xoş o kəsin halına ki, onu sevə və ona kömək edə, vay o kəsin halına ki, onun əmrindən boyun qaçıra və ona kömək etməyə, onun haqqını inkar edə". Həzrət Əlini (ə) evə gətirəndə, həzrət Muhəmməd (s) onlara gəldi. Onu öz ətəyinə qoydu. Əli (ə) gözlərini açdı və o həzrətin nurlu simasını gördükdə sevinib, güldü.

Xanım Fatimə binti Əsəd Allah Rəsulu (s) haqqında belə deyir: "Bizim evin həyətində bir xurma ağacı vardı, xeyli vaxt idi ki, qurumuşdu. Allah Rəsulu (s) hələ uşaqkən bizim evimizə gəlmişdi. Bir

gün o, əli ilə qurumuş xurma ağacına toxundu. Həmin an ağac yaşıllaşdı və bar verdi. Mən hər gün ağacdan düşən xurmaları yığıb bir qaba qoyurdum.

Muhəmməd (s) gəlib o xurmaları məndən alır və uşaqlara paylayırdı.

Bir gün o həzrət bizə gəldi və buyurdu: "Ana! Xurma ver". Dedim: "Oğlum! Bu gün ağacda xurma yox idi. And olsun onun üzünün nuruna, gördüm ki, Muhəmməd (s) ağaca tərəf gəldi və nəsə dedi. Birdən ağac əyildi, həzrət lazım olan qədər xurma yığdı və ağac əvvəlki vəziyyətinə qayıtdı. O gün bu dua dilimə gəldi: "İlahi! Ey Pərvərdigar! Mənə bir oğlan övladı nəsib et ki, Muhəmməd (s) üçün qardaş olsun". Ondan sonra Mütəal Allah Əlini (ə) mənə verdi.

Mənbələr:

İbn Şəhr Aşub, "Mənaqib Ali Əbu Talib", c.1 səh. 32 və 37
Əmini, "Əl-Ğədir", c. 6 səh. 13
Səduq, "Əmali", səh. 80
Qummi, "Muntəhəl-amal", səh. 97

Qısa tanışlıq:

Adı – Fatimə
Atasının adı – Əsəd
Anasının adı – Atikə
Təvəllüdü – Hicrətdən təxminən 61 il əvvəl
Həyat yoldaşının adı – Əbu Talib
Vəfatı – Hicrətin dördüncü il
Dəfn yeri – Mədinətul-Munəvvərə

MƏHƏBBƏTİN KÖLGƏSİ



Xuveylidin qızı xanım Xədicənin cah-cəlallı bir evi var idı. Bu evi qulam və kənizlər idarə edirdilər. O, Məkkə şəhərinin ən varlı və izzətli qadını idi. Bütün camaat Xədicəni tanıyır və ona çox hörmət edirdi. Bəyənilmiş əxlaqı günbəgün onu daha da sevimli edirdi. Xanım Xədicə namuslu, təqvalı, qayğıkeş, mehriban, varlı və səxavətli, ağıllı, müvəhhid bir qadın idi.

Günlərin bir günü xanım Xədicə istirahət edirdi. Xidmətçilərdən biri ona dedi: "Xanım! Bayırda Qureyş böyüklərindən iki nəfər dayanıb sizinlə görüşmək üçün icazə istəyirlər. Onlara nə cavab verim?" Xanım Xədicə dərhal yerindən qalxdı və dedi: "Onları qonaq otaqlarından birinə apar və qulluq et, mən də gəlirəm ".

Əbu Talib və Abbas (Həzrət Muhəmmədin (s) əmiləri) izzət və hörmətlə Xədicənin evinə daxil oldular. Qonaqlara qulluq olundu. Sonra o pak qadın onlara "xoş gəldiniz" dedi. O, Əbu Talib və Abbası yaxşı tanıyır, onların məqamından xəbərdar idi. Amma görəsən, hansı bir mühüm iş üçün o təqvalı qadının evinə gəlmişdilər?

Bir qədər sonra Əbu Talib sözə başladı və Xədicəyə dedi: "Bizim qardaşımız oğlu Muhəmməd (s) mömin və təqvalı bir cavandır ki, tərifə ehtiyacı yoxdur. Çünki hamı onun əxlaq və rəftarından xəbərdardır. Siz də onu yaxşı tanıyırsınız. Muhəmməd (s) ticarət üçün müxtəlif torpaqlara göndərdiyiniz karvanlarda sizə kömək edib ticarətinizi rövnəqləndirər". Məkkə şəhərinin ən böyük tacir və sərmayədarlarından sayılan Xədicə xanım bu təklifi eşitcək çox xoşhal oldu və Əbu Taliblə razılaşdı ki, ticarət işləri ilə həzrət Muhəmməd (s) məşğul olsun. Eyni zamanda buyurdu: "İstəyirəm onu yaxından görüb bu təklif barədə fikrini özündən eşidim və qərarını bilim".

Bu zaman həzrətin əmisi Abbas yerindən qalxdı və Muhəmmədin (s) yanına getdi, hadisəni ona danışdı. Sonra birlikdə Xədicənin evinə gəldilər. O ixlaslı qadın həzrət Muhəmmədi (s) görcək əmilərinin yanında onu tərifladi, sonra o həzrətə ərz etdi: "Mənim ticarət karvanıma əmin bir şəxs kimi başçılıq edib, mənfəət götürmək istəy-

irsənmi?" Həzrət Muhəmməd(s) buyurdu: "Bəli, Şam səfərində iştirak etməyə hazıram".

Beləliklə, Xanım Xədicə Həzrət Muhəmməddən (s) onun karvanına qoşulmağı xahiş etdi. Ticarət karvanı hərəkət etməyə hazır idi. Xanım Xədicə karvanın qoruqçusu Meysərəyə göstəriş verərək dedi: "Hər yerdə Muhəmmədə (s) tabe ol, nəbadə onun sözündən çıxasan".

Nəhayət, karvan Xədicə və Peyğəmbərin (s) əmilərinin müşayiəti ilə yola düşdü. Bu yolda karvan bir xristian məbədinin yaxınlığında dayandı. Karvandakılar istirahətə məşğul oldular. Nəsturi adlı bir məsihi rahibi məbəddən karvandakılara tamaşa edirdi. Onun gözü Muhəmmədə (s) sataşanda tələsik o həzrətə tərəf getdi. Həzrətin (s) çiynində peyğəmbərlik nişanələrini görüb onu öpdü və dedi: "And olsun Allaha ki, sən Allahın Rəsulu (s) olacaqsan!" Sonra üzünü Meysərəyə tutub dedi: "Bu şəxsə hörmət et, əmr və qadağalarına əməl et. Çünki o, Peyğəmbərdir. İsa (ə) onun zühuruna müjdə verib. Adı Əhməd olan və başdan-başa dünyaya hökumət edəcək bir elçinin gələcəyinə olan müjdə".

Həzrət Muhəmməd (s) Şama olan ilk ticarət səfərində Xədicəyə çoxlu mənfəət gətirdi. Bu səfərdə heç bir yolkəsən quldur karvana hücum etmədi. Bir müddət sonra ticarət karvanı Məkkə şəhərinə tərəf yola düşdü. Onlar Məkkəyə daxil olduqda Meysərə ilk olaraq salamlaşmaq, səfər haqqında məlumat vermək üçün Xədicənin xidmətinə yetişdi. O, götürdükləri gəliri və yol boyu Muhəmməddən (s) gördüyü qeyri-adilikləri, macəraları xanıma danışdı.

Xanım Xədicə ticarət səfərindən əvvəl Muhəmmədə (s) söz verdiyi kimi onun bütün haqqını kamil şəkildə ödədi və ondan yenə də ticarət karvanına başçılıq etməsini xahiş etdi. O andan etibarən xanım Xədicənin qəlbində həzrət Muhəmmədin (s) mehr-məhəbbəti daha da artdı. Xədicənin də mehri Muhəmmədin (s) səmavi qəlbində idi.

Xanım Xədicə həzrət Muhəmməd (s) tərəfindən özünə qarşı rəğbət hiss etdikdə o əzəmətli şəxsə dedi: "Razısanmı mən sizin üçün bəyənəcəyiniz bir qadını əqd edim?" Həzrət buyurdu: "Bəli". il

edildi. Muhəmməd (s) və Xədicə evləndilər. Məkkə qadınları xanım Xədicənin Muhəmmədlə (s) evlənməsi xəbərini eşitdikdə onu danladılar. Amma Xədicə xanım onların cavabında dedi: "Ey Qureyş qadınları, mənə xəbər çatıb ki, Muhəmmədlə (s) evləndiyim üçün ərləriniz mənə eyib tutur. Sizdən soruşuram: sizin içinizdə onun kimisi varmı? Məkkədə camal, kamal, əxlaq və fəzilətdə onun kimi bəyənilmiş bir şəxs varmı? Onun haqqında elə şeylər eşitdim və gördüm ki, heç kimsədə görülməyib. Buna görə də bilmədiyiniz şeyi danışmayın və bilmədiyiniz işə qarışmayın".

Mənbələr:

İbn Şəhr Aşub, "Mənaqib Ali Əbu Talib", c. 1 səh. 41

Məclisi, "Biharul-ənvar", c. 16 səh. 54

Qısa tanışlıq:

Adı – Xədicə

Kunyə – Ummu Hind, Ummul-möminin, Ummu Zəhra (ə)

Vəfat tarixi – Besətin onuncu ili

Dəfn yeri – Məkkeyi Mukərrəmə

BÜLLUR QƏLB



Müqəddəs Peyğəmbərin (s) vəfatından çox keçməmişdi. Cəmiyyətdə vəziyyət çox dağınıq idi – Qədir-Xumu, həzrət Əlinin (ə) Peyğəmbərin (s) yerinə canişin olması hadisəsini unutmuş və öz beyətlərini sındırmışdılar.

O zaman münafiqlərin hər biri vəsilik və vilayət məqamını özlərinə məxsus etmək istəyirdi. Fürsət güdənlərin bir dəstəsi müsəlmanlara rəhbərlik edəcək bir xəlifə seçmək və yekdil fikrə gəlmək üçün "Səqifə" adlanan yerdə cəm olmuşdular.

Uzun-uzadı danışıqdan sonra onlar Əbu Bəkri xəlifə təyin edib dedilər: "Hamı gərək ona beyət etsin". Həzrət Əmirəl-möminin Əli (ə) xilafət və vəsilik məqamını öz haqqı olduğunu bildiyi üçün o şəxsə beyət etmədi.

Bu işdən sonra xəlifə və onun tərəfdarları Allah vəlisi həzrət Əlini (ə) zorla beyətə məcbur etmək qərarına gəldilər. Bu qərardan sonra vəhyin evi, Allah Rəsulunun (s) əhli-beytinin mənzili zalımların hücumuna məruz qaldı. O hadisəni şərh etməyə qələm utanır, dil isə onu bəyan etməkdə acizdir.

Allah Rəsulunun çox ehtiram etdiyi həyat yoldaşlarından biri olan Ummu Sələmə bu hadisənin şahidi olduğundan həmişə qəmli və qüssəli görünürdü. O, Allah Rəsulunun (s) ailəsinin himayəçilərindən və dostlarından idi. Amma öz zamanının imamı olan həzrət Əlidən (ə) önə keçmək istəmirdi.

İmam Əlinin (ə) sükut etməsi ilə Ummu Sələmə də sükut etdi. O görürdü ki, imamət və vəsilik yolundan azanlar elə bir evə hücum ediblər ki, oranın əhlinin şəninə mübarək "Təthir" ayəsi nazil olmuşdu. Əli, Fatimə, Həsən və Hüseyn (ə) xilafət muzdurlarının, tərfədarlarının mühasirəyə aldıqları evdə yaşayırdılar.

Həzrət Fatimə (s) ədalət tələb etmək üçün məscidə getdi və orada odlu-alovlu bir xütbə deyərək müsəlmanları ədalətə, insaflı olmağa çağırdı. Peyğəmbər (s) qızının sözlərindən qorxuya düşən xəlifə minbərə çıxıb o pak xanımın sözləri ilə şiddətlə müxalifət etdi. Nəfslərin sinələrdə həbs olduğu, heç kəsin etiraza cürəti çatmadığı bir vaxtda xanım Ummu Sələmə Fatimə və onun məzlum həyat yoldaşının

haqqını müdafiə etmək, qəsbkarların nahaq böhtanlarının qarşısını almaq qərarına gəldi.

Birdən xanım Ummu Sələmənin səsi məscidi bürüdü. O, zalım xəlifəyə və orada yığılanlara xitab edərək dedi: "Həzrət Zəhra (ə.s) kimi xanımla belə danışmaq olarmı?! And olsun Allaha ki, o, behişt xanımlarının xanımıdır. O, Peyğəmbərin (s) qoynunda tərbiyə almış və mələklərin əli ona toxunmuşdur.

O, pak bir ailədə böyümüş və ən yaxşı şəkildə tərbiyə edilmişdir. Elə güman edirsiniz ki, Allah Rəsulu öz mirasını ona haram etmiş və ona verməmişdir. Halbuki Allah əmr etmişdir ki, öz yaxın qohumlarını qorxut və Peyğəmbər (s) də onları agah etmişdi. O, indi öz mirasını əldə etmək üçün ayağa qalxmışdır. O, qadınların ən yaxşısı, Behişt cavanlarının iki sərvərinin anası, İmranın qızına bərabər, Allah vəlisinin həyat yoldaşıdır və onun atası peyğəmbərlərin xatəmidir. Allaha and olsun ki, atası onu istidən və soyuqdan qoruyardı. Ona mehribanlıq göstərər, sağ əlini onun üçün balış, sol əlini isə örtük edərdi. Ehtiyatlı olun. Çünki, Allah Rəsulu (s) sizi görür. Siz Allahla üzləşəcəksiniz. Vay olsun sizə! Tezliklə biləcəksiniz ki, sizi hansı əzab gözləyir".

Xanım Ummu Sələmə bütün qəmlərdə və şadlıqlarda Peyğəmbər (s) Əhli-beyti ilə şərik idi. Onların sevinci ilə sevinər, müsibətlərində qəmlənərdi.

İmam Hüseyn (ə) öz əhli-beyti ilə birlikdə Mədinə şəhərindən Kərbəlaya getmək istədikdə Bəni-Haşimin qadınları, o cümlədən, Ummu Sələmə o Həzrətin ətrafında toplaşdı.

İmam Hüseyn (ə) onların qərarsızlığını görüb buyurdu: "Sizi and verirəm Allaha! Səbirli olun və qərarsızlıqdan əl çəkin". Amma xanımlar dedilər: "Ey bizim ağamız və mövlamız! Sizin kimi bir insan bizim aramızdan getdiyi və bizi tək qoyduğu bir halda necə nalə çəkməyək? Biz ki, bilmirik münafiqlər sizinlə necə rəftar edəcəklər? And olsun Allaha! Bu an bizim üçün Allah Rəsulunun (s) dünyadan getdiyi, həzrət Fatimənin (ə.s), Əmirəl-möminin (ə) şəhadətə çatdığı gün kimidir..."

Bu zaman Ummu Sələmə imam Hüseynə (ə) yaxınlaşıb ərz etdi: "Ey gözümün nuru! Ey Hüseyn can! İraqa səfərinlə məni qəmlətmə. Çünki, babandan eşitmişəm ki, buyurub: "Övladım Hüseyn (ə) İraqda, Kərbəla deyilən bir torpaqda şəhid ediləcək".

Sonra İmam Hüseyn (ə) möcüzəvi bir şəkildə Kərbəla torpağından bir az Ummu Sələməyə verdi və buyurdu: "O zaman ki, görəcəksən torpağın rəngi qan rənginə boyanıb, bil ki, məni şəhid etdilər".

Xanım Ummu Sələmə həzrət Xədicədən sonra Peyğəmbərin həyat yoldaşlarından ən üstünü idi. O, Peyğəmbərin (s) razılığını qazanmaq üçün çox səy etmişdi.

Rəsuli Əkrəmin (s) xanım Xədicəyə xüsusi məhəbbəti var idi. Onun ölümündən illər keçməsinə baxmayaraq müxtəlif münasibətlərdə onu yad edərdi. Xanım Ummu Sələmə də Peyğəmbərə (s) deyərdi: "Xanım Xədicə dediyiniz bütün bu sifətlərə malik idi və o öz Allahına tərəf tələsdi. Allah bu mənzili onun üçün bərəkətli etdi".

Xanım Ummu Sələmə iffətli, təqvalı, sözünü bilən, ağıllı, ismətli və pak Əhli-beytin (ə) aşiqi idi. Məsumlar da öz növbəsində o xanıma çox ehtiram göstərirdilər. İslam Peyğəmbəri (s) dəfələrlə ona buyurmuşdu: "Sən yaxşı xanımsan". Bu kəlmələrin mənası bu idi ki, Peyğəmbər (s) həmişə ondan razı idi.

Mənbələr:

Təbəri, "Dəlailul-imamə", səh. 39
Məclisi, "Cilaul-uyun", səh. 353
Maməqani, "Tənqihul-məqal", c. 3

Qısa tanışlıq:

Adı – Hind
Kunyəsi - Ummu Sələmə
Atasının adı – Huzeyfə
Ömrü – 84 il
Vəfatı – Hicrətin 62-ci il
Dəfn olunduğu yer – Bəqi qəbiristanlığı (Mədinə)

UHUDUN SƏRDARI



Məkkənin müşrik başçılarından bir dəstəsi yolun üstündə durmuşdu. Onlar ucadan danışır, gülüşürdülər. Elə bu zaman oradan keçmək istəyən Alllah Rəsulunu (s) gördülər. İslam Peyğəmbərinin (s) ən qatı düşməni olan Əbu Cəhl də müşriklərin arasında idi. O, üzünü Həzrətə (s) tutub özünə layiq olan sözləri Allah Rəsuluna (s) dedi.

O nəinki Peyğəmbəri (s) məsxərə etdi, hətta o həzrətin (s) Allahını və dinini də təhqir etdi. Onlar utanmadan Allah Rəsuluna (s) nalayiq sözlər deyir və öz cahilliklərini hamıya göstərirdilər. İslamın böyük Peyğəmbəri (s) müşriklərin pis rəftarları ilə tanış olduğundan, onlara etina etmədən həmişəki təmkin və vüqarla o yoldan keçdi. Çünki axmaqların cavabı sükutdur. Allahın Rəsulu (s) müşriklərdən uzaqlaşsa da, onların pis və atmaca sözləri hələ bitməmişdi.

Əbu Cəhl dayanmadan qışqırır, ən sevimli, ən şərafətli insanı təhqir edirdi. Onun qəzəb atəşi nə sönür, nə də aram olurdu. Bu zaman bütün vücudunu qorxu almış müşriklərdən biri qışqırdı: "Həmzə! Həmzə bizə tərəf gəlir..."

Cənab Həmzə boylu-buxunlu və qüvvətli idi. Çiynindən kaman, belindən bir qılınc asmışdı. Qum tufanından amanda qalmaq üçün üzünə bir parça bağlamışdı. O, şikardan qayıdırdı. Şücaət və mərdlikdə misilsiz idi. Cəngavərlikdə Məkkə əhalisinin heç biri Həmzəyə çatmazdı. O tanınmış tənha süvari ərəb atına minib uzaqdan gəlirdi. Müşriklər qorxularından heç nə danışmırdılar. Onların nəfəsləri sinələrində elə bil ki, həbs olunmuşdu. Yalnız Həmzənin mindiyi atın ayaq səsləri eşidilirdi. Həmzə camaata çatanda atdan endi, filizdən olan ağır kamanını əlinə alıb üzündəki örtüyü kənara çəkdi. O, camaatın arasında addımlamağa başladı. Hamının baxışı ona dikilmişdi. Cənab Həmzə bilirdi ki, bu sükut səbəbsiz deyil. Buna görə də soruşdu: "Burada nə baş verib? Nə üçün heç kəs danışmır?"

Bu zaman baş verənləri izləyənlərdən biri sakitcə olanları o cənaba danışdı.

Həmzə macəradan xəbərdar olduqda dərhal müşrüklərə tərəf qayıdıb qışqırdı: "Əbu Cəhl haradadır?" Qorxusundan kafirlərin arasın-

da gizlənən Əbu Cəhl Həmzənin yeri-göyü titrədən nərəsini eşitdikdə rəngi qaçmış halda, əl-ayağı titrəyə-titrəyə, qorxa-qorxa camaatın içərisindən irəli çıxdı.

Bu vaxt Həmzə əlindəki kamanı Əbu Cəhlin başına möhkəm vurdu. Onun köynəyinin yaxasından tutub qəzəblə yerə yıxdı, ayağını o ədəbsiz iğtişaşçının boynuna qoyub sıxdı. Əbu Cəhlin üz-gözü qantərə, toz-torpağa bulaşdı. Həmzənin ayaqları altında əl-qol atıb yalvarmağa başladı: "Rəhm et! Məni öldürmə!"

Bu zaman Əbu Cəhlin ətrafındakılar qaçıb xahiş və təmənna ilə yarıcan olan ağalarını qeyrətli cəngavərin ayaqları altından çıxartdılar. Onu özləri ilə evə apardılar. Peyğəmbəri (s) incitmək istəyən Əbu Cəhl Allah Rəsulunun (s) əmisinin əli ilə yaxşı tənbeh və Məkkə əhalisinin yanında zəlil və xar oldu.

Həmzədən çox qorxan Əbu Cəhlin havadarları onun da Peyğəmbərin (s) ardıcıllarından, ona iman gətirənlərdən olmasını güman etməyərək dedilər: "Ey cəngavər! İndi ki, Muhəmmədin dinini qəbul etmirsən, bəs niyə onu müdafiə edirsən?"

Bu zaman Həmzə qərara gəldi ki, məkkəlilər – dostla düşmən arasında öz etiqadını etiraf etsin. Odur ki, qışqırdı: "Ey camaat! İndi bilin ki, mən müsəlmanam. Allahın təkliyinə və Muhəmmədin peyğəmbərliyinə şəhadət verirəm: "Əşhədu ən la ilahə illəllah və əşhədu ənnə Muhəmmədən Rəsulullah!" Allaha and olsun ki, öz imanımdan əl çəkməyəcəm. Əgər qüdrətiniz varsa, məni bu işdən saxlayın".

Məkkə müşrikləri Həmzənin Allah Rəsulunun (s) tərəfdarı olub onu müdafiə və himayə etdiyini görəndə fikrə getdilər və bir-birilərinə dedilər: "Həmzənin varlığı Muhəmmədi güclü etdi. Biz gərək bu gündən etdibarən əvvəlkindən daha çox öz rəftar və sözlərimizə diqqət yetirək. Əks təqdirdə Əbu Cəhlin başına gələn bəla bizim də başımıza gələcək".

Cənab Həmzə bütün bərəkətli ömrü boyu daim nübuvvəti və Allah Rəsulunun (s) müqəddəs vücudunu müdafiə edib ona arxa durdu. Nə qədər ki, Həmzə sağ idi, Peyğəmbər Əkrəm (s) daha çox asayişlə camaatı təkallahlığa dəvət edə bilirdi. Çünki Həmzənin heybət

və qüdrəti müşriklərə bu icazəni vermirdi ki, Peyğəmbərə (s) əzab-əziyyət vermək fikrinə düşsünlər. Həmzə Allahın təkliyini, həzrət Məhəmmədin (s) nübuvvətini, Əlinin (ə) Peyğəmbər (s) canişini olmasını qəbul etdi və buna bir an belə şəkk etmədi.

Nəhayət, Uhud döyüşündə Məkkə kafirləri və müşrikləri ilə döyüşən zaman düşmən ordusu tərəfindən muzd tutulmuş bir qulun nizəsinə tuş gəldi. O, döyüş meydanında öz canını can sahibinə təslim, uca ruhu isə asimana tərəf pərvaz etdi.

Mənbələr:

Əmin Amuli, "Ə'yanuş-şiə", c. 6, səh. 243

Qısa tanışlıq:

Adı – Həmzə
Atasının adı – Əbdül-Müttəlib
Ləqəb – Əsədullah, Əsədur-rəsul, Seyyidüş-şühəda
Təvəllüd – "Amul-fil" ilindən dörd il əvvəl
Şəhadət tarixi – Hicrətin 3-cü ili, Şəvval ayında, Uhud döyüşündə
Qatili – Vəhşi

ŞƏHADƏT PƏRVAZI



Şadlığa səbəb toy mərasimi idi. Bütün Mədinə əhli bilirdi ki, bu gecə Hənzələnin toyudur. Atası Allah Rəsulunun (s) ən qatı düşmənlərindən idi, amma buna baxmayaraq, özü Peyğəmbərin (s) vəfalı səhabələrindən və dostlarından sayılırdı. Hənzələnin atası Əbu Amir nəinki oğlunu müsəlmanların arasında görmək istəmirdi, üstəlik sinəsində Allah Rəsuluna (s) qarşı böyük bir kin bəsləyirdi.

Hənzələ və onun atası – hər ikisi ixtiyar və qüdrət sahibi idi. Amma biri batil və azğınlıq yolunu, digəri isə azadlıq və səadət yolunu seçmişdi. Hənzələnin həyat yoldaşı Cəmilə də əri kimi Abdullah ibn Ubəyy adlı münafiq və müşrik bir kişinin qızı idi. Cəmilənin atası da qızının İslamı qəbul etməsindən narahat olaraq əvvəlkindən daha çox İslam dini və Peyğəmbər Əkrəm (s) ilə müxalifət edirdi.

Cəmilə və Hənzələ, bu müsəlman gəlin və bəy, öz həyat xoşbəxtliklərini Peyğəmbər Əkrəmə (s) tabe olmaqda və o Həzrətə (s) kömək etməkdə görürdülər. Müsəlman qadın və kişilər toy məclisində iştirak edir, Hənzələ də onları isti qanlı surətdə qarşılayırdı.

Toy məclisi bitdikdən sonra Hənzələ həyat yoldaşı ilə öz evinə getdi.

İslamın Ərəbistan yarımadasında sürətlə inkişafından narahat və əsəbi olan, həmçinin Bədr döyüşündən də heyifli qalan Qureyş müşrikləri Allah Rəsuluna (s) müharibə elan etdilər. Onlar dedilər: "Bədr döyüşündə ölənlərin intiqamını Məhəmməd (s) və onun dostlarından alacağıq". Kafirlər zorla və hədə-qorxu ilə camaaatın evinə soxulmaq istəyirdilər. Məhəmməd (s) isə camatın qəlbinə mehr və məhəbbətlə yol tapırdı.

Müşrik başçılarından bir neçəsi müsəlmanların əli ilə həlak edilmişdi. Bütpərəst və zalımların güc-qüvvəsi günbəgün azalır, İslam dini isə əksinə, daim qüvvətlənirdi. Müşriklərin hədə-qorxularından xəbərdar olan İslam Peyğəmbəri (s) öz qoşununu səhəri gün kafirlərlə döyüşə göndərmək üçün hazırladı. Bütün müsəlmanların döyüşə hazırlaşdıqları gecə Allah Rəsulu (s) Hənzələyə toy məclisi keçirmək icazəsini verdi. Hənzələ Peyğəmbərə (s) və İslam dininə

iman gətirmişdi. Amma öz evliliyi ilə dinini daha da kamil etdi. Mədinə müsəlmanları o gecə oyaq idilər. Onlar müharibəyə hazırlaşır, qılınclarını itiləyirdilər.

Səhəri gün sübh tezdən düşmən qoşunu ilə İslam ordusu üzbəüz gəldi. Çox çəkmədi ki, iki qoşun arasında ağır döyüş başlandı. Döyüşün əvvəlində müsəlmanlar böyük müvəffəqiyyətlər əldə etdilər. Düşmən döyüşcüləri bir-birinin ardınca həlak olurdu. Bu tarixi vuruşmada həzrət Əli (ə) və Həmzənin şücaəti ilə kafirlər müsəlmanlardan güclü zərbələr aldılar.

Bu zaman İslam əsgərlərindən bir dəstəsi qoşunlarını meydanda qalib görüb öz həssas mövqelərini tərk edərək düşmən qənimətlərinə tərəf qaçdılar. Bir dəstə fürsət güdən müşrik yaranmış vəziyyətdən öz xeyirlərinə istifadə edib, arxadan İslam ordusuna tərəf hücuma keçdi. Düşmənlər yalandan qışqırdılar: "Məhəmməd öldü, Məhəmməd öldü!" Çox çəkmədi ki, zəif iradəli müsəlmanlardan bir dəstəsi qaçmağa üz tutdu, bir çoxları isə yaralanıb öldülər. Allahın Rəsulu (s) çox az, lakin şücaətli və dilavər dəstəsilə düşmən mühasirəsinə düşdü.

Sübh vaxtı İslam əsgərlərindən biri Mədinənin küçələrində fəryad etdi: "Tələsin! Allah Rəsulunun (s) köməyinə tələsin!" Hənzələ döyüşün çətin vəziyyətdə olduğunu başa düşdü. Cəld öz silahını götürərək evdən çıxdı, ata minib döyüşə tələsdi. Çox keçmədi ki, döyüş meydanına yaxınlaşıb özünü ildırım sürətilə meydana atdı. Hənzələ – təzə bəy olan bu müsəlman göstərdiyi rəşadətlə bir dəstə müşriki həlak və cəhənnəmə vasil etdi.

Döyüş zamanı birdən Hənzələnin gözləri müsəlmanları döyüşə dəvət edən Əbu Sufyana sataşdı. Bu səhnəni arzulayan Hənzələ "Allahu Əkbər" – deyərək, ona tərəf hücum etdi. Bu zaman Əbu Sufyan özünü itirdi, qəzəbindən coşan cavanı önündə görüb mübarizə aparmaq qərarına gəldi. Amma Hənzələ cəld və sürətli zərbələri ilə əvvəlcə o müşrikin atını məhv etdi. Elə ki, Əbu Sufyan piyada döyüşməyə məcbur oldu, Hənzələ onun işini bitirmək üçün bir də hücuma keçdi.

Kafirlər və müşriklər Əbu Sufyanın fəryadını eşidib ona kömək üçün tələsdilər.

Hənzələ iti qılıncını Əbu Sufyanın başına endirmək istədikdə müşriklərdən biri öz nizəsi ilə onu yaraladı və müşriklərin ordu başçısını ölümdən xilas etdi. Hənzələ elə o vəziyyətdəcə öz qatilinə hücum etdi və onu öldürdü. Əbu Sufyan isə qorxusundan öz ordusunun arasında gizləndi. Hənzələ şəhadətə yetişdiyi zaman İslamın əziz Peyğəmbəri (s) onun haqqında buyurdu: "Mən yerlə göy arasında mələkləri gördüm ki, onlar gümüş qablarda şəffaf su ilə ona (Hənzələyə) qüsl verirdilər".

Təzə bəy olan Hənzələ öz şəhadəti ilə əbədi xoşbəxtliyə, səadətə qovuşdu və öz şəhadətini çox gözəl bayram etdi.

Mənbələr:

Yusifi Ğərəvi, "Məvsuətut-tarixil-islami",
c. 2, səh. 158, 253, 272, 273, 317, 326,
Qumminin və digərlərinin təfsirlərindən olan nəqlə əsasən

Qısa tanışlıq:

Adı – Hənzələ
Atasının adı – Əbu Amir
Qəbiləsinin adı – Ovs
Şəhadət tarixi – Hicrətin 3-cü ili, Uhud döyüşündə

MƏRD QEYRƏTİ



Nusəybə Mazəniyyə müsəlmanların şücaətli xanımlarından olaraq Uhud döyüşünün əvvəlindən meydanda idi. O, su tuluğunu çiyninə salaraq meydanda dolaşır, susuz müsəlmanları sirab edirdi. İslam qoşununun yaralılarına tibbi yardım göstərir, düşməndən azacıq da olsa qorxmurdu.

Uhud müharibəsi düşmən qüvvələri ilə müsəlmanlar arasında başlamışdı. Allah Rəsulu (s) İslam ordusuna başçılığı öz öhdəsinə götürmüşdü. Həzrəti Əli ibn Əbu Talib (ə) o Həzrətin (s) ətrafında dolanaraq qılınc çalır və Peyğəmbərin (s) müqəddəs vücudunu qoruyurdu.

Allah Peyğəmbərinin (s) əmisi Həmzə də meydanda şücaətlə vuruşur, kafir və müşrikləri bir-birinin ardınca yerə sərirdi. Bir müddət döyüşün bütün şəraiti müsəlman ordusunun xeyrinə olaraq irəli getdi. Amma iradəsiz və itaətsiz müsəlmanlardan bəziləri öz əməlləri ilə döyüşün şəraitini düşmən ordusunun xeyrinə döndərdilər. Çox çəkmədi ki, Peyğəmbərin (s) əmisi döyüş meydanında şəhid oldu. Müsəlman döyüşçülərdən bir dəstəsi qaçmağa üz tutaraq meydanı boş qoydular. Münafiqlərdən bir dəstəsi isə döyüşdə Allah Rəsulunun (s) ölüm şayiəsini yaymağa başladılar. Bu çaxnaşmadan yaranan hərc-mərclik düşmən qoşununun müsəlmanlardan üstün olmasına səbəb oldu və müsəlmanlar daha çox itki verdilər. Yalnız çox az olan cəngavər möminlərin bir dəstəsi döyüş meydanında qalaraq Allah Peyğəmbərini (s) müdafiə etdilər. Onlar öz etiqadlarında sabitqədəm idilər.

Nusəybə Mazəniyyə müsəlmanların şücaətli xanımlarından olaraq Uhud döyüşünün əvvəlindən meydanda idi. O, su tuliğunu çiyninə salaraq meydanda dolaşır, susuz müsəlmanları sirab edirdi. İslam qoşununun yaralılarına tibbi yardım göstərir, düşməndən azacıq da olsa qorxmurdu.

İslam Peyğəmbəri (s) bu şücaətli xanımın döyüş meydanına atılmağından xəbərdar idi və arabir Nusəybənin şücaətli hərəkətlərinə nəzər salırdı. Uhud müharibəsi düşmən ordusunun xeyirinə dəyişdiyi və müşriklərin Allah Rəsulunu (s) şəhadətə çatdırmaq istədiyi zamanda Nusəybə qılıncı yerdən qaldırıb cəld düşmən ordusuna həmlə etdi. O artıq öz vəzifəsinin susuzlara su vermək və yaralılara tibbi yardım göstərmək olduğunu hesab etmirdi. O anda xatəm Peyğəmbərin (s) müqəddəs vücudunu mühafizə etmək onun üçün hər şeydən mühüm

idi. O şücaətli qadın mərd qeyrəti və uca himməti ilə öz dəyərli canını düşmənin nizələrinə sipər etdi ki, Allah Rəsulu (s) zərrə qədər belə zərər görməsin və onun nazənin vücudu yaralanmasın.

Bu zaman İslamın ən qatı düşmənlərindən biri olan Abdullah bin Qəmiz ata süvar olub Allah Rəsuluna hücum edərək dedi: "Məhəmməd haradadır? Yaşamaram, əgər onu yaşatsam!" Nusəybə o düşmənin təhlükəli olduğunu görüb müsəlman mübarizlərdən bir neçəsi ilə onun yolunu bağladılar, çətinliklə də olsa ona müqavimət göstərdilər. O qaçmağa başladı. Məğlub olmuş düşmən İslam Peyğəmbərini öldürməkdən məyus olduqda, öz qılıncı ilə Nusəybənin çiyninə bir zərbə vurdu. O xanım yerə yıxıldı.

Uhud müharibəsində o şücaətli və qeyrətli xanımın oğullarından biri bir müşrikin əli ilə şəhid oldu. Nusəybə bu səhnəni gördükdə əlindəki qılıncla övladının qatilinə hücum edib bir göz qırpımında onu öz zərbəsi ilə həlak etdi. Bu hadisəni görən Peyğəmbər (s) buyurdu: "Ey Nusəybə! Allah sənə bərəkət versin!"

Uhud döyüşündə Nusəybə Mazəniyyə çox şiddətli yaralandı. O yaralar Allah yolunda mübarizə aparmağın və cihadın yaraları idi. Nusəybənin övladı deyir:

"Uhud döyüşündə idim və İslamın əziz Peyğəmbərini (s) müdafiə edirdim. Birdən o Həzrət (s) anamın çiynindən aldığı ağır yaranı gördü və buyurdu: "Ananın, ananın yaralarını bağla! Allah sizin ailənizi cox mükafatlandırsın. Allah sizə rəhm etsin". Nusibə ərz etdi: "Allahdan istə ki, biz Behiştdə sənlə yanaşı olaq". Həzrət (s) buyurdu: "İlahi! Onları Behiştdə mənim dostlarım qərar ver". Anam Peyğəmbərin (s) bu duasını eşitdikdən sonra dedi: "Bu gündən etibarən dünyada başıma nə gəlsə, mənim üçün mühüm deyil". Nəhayət, şücaətli möminlərdən az bir dəstənin, o cümlədən, Əli ibn Əbu Talib (ə), Nusəybə Mazəniyyə, onun həyat yoldaşı və oğullarının fədakarlığı ilə Uhud müharibəsi sona yetdi. Müsəlmanlar öz evlərinə qayıtdılar. Nusəybə bu döyüş nəticəsində aldığı ağır yaralardan bir müddət müalicə olundu və sağaldı".

Ummi Umarə adı ilə məşhur olan Nusəybə Kə`b Mazəninin qızı

və ərəbin şücaətli qadınlarından idi. O, Allah Rəsuluna (s) hicrətdən əvvəl iman gətirmişdi. Nusəybə "Əqəbə beyətində" Allah Rəsuluna (s) beyət edənlərdən idi. Bu şücaətli qadın Uhud, Hudeybiyyə, Xeybər, Umratul-qəza, Huneyn döyüşlərində iştirak etmişdi. O, döyüş meydanlarının şirzəni hesab edilirdi. Nusəybə təqvalı, şücaətli, İslamı və vilayəti müdafiə edən bir xanım idi. Qeyrət və imanı Allah Rəsulunu (s) xətərdə gördüyü zaman ona sakit durmağa icazə verməzdi. O yüksək məqamlı qadın hər vasitə ilə olursa-olsun, qəlbindən və xalis olan bağlılığını Peyğəmbəri Əkrəmə (s) göstərərdi. Həmişə arzu edərdi ki, dünya və axirətdə o Həzrət (s) ilə məhşur olsun.

Mənbələr:

Məclisi, "Biharul-ənvar", c. 20, səh. 53
İbni Sə`d, "Təbəqat", c. 8, səh. 415

Qısa tanışlıq:
Adı – Nusəybə
Atasının adı – Kə`b
Ləqəbi – Mazəniyyə
Kunyəsi – Ummu Umarə

UÇMAQ EŞQİ



Karvan qum tufanında aram-aram irəliləyir, külək isə karvanda olanların ayaq izlərini aradan aparırdı. Məkkə müşriklərinin işkəncələrindən amanda qalmaq üçün müsəlman kişi və qadınlar İslam Peyğəmbərinin (s) göstərişi ilə Həbəşistana hicrət edirdilər. Həbəşistanın yolu isə çox uzaq idi.

Müsəlmanlar oraya ticarət gəmiləri vasitəsilə, su yolu ilə getməli idilər. "Şüeybə" limanına çox az qalmışdı. Hamı gəmiyə minməyə tələsirdi. Çünki bir tərəfdən müşriklər mühacirləri təqib edir, digər tərəfdən isə gəmilərin hərəkət zamanı yaxınlaşırdı. Nəhayət, müsəlmanlar Hicazın isti, quru biyabanları ilə çətin və üzücü səfər edib limana çatdılar. Onlar tələsik ticarət gəmilərinə minib Həbəşistana tərəf yola düşdülər.

Müşriklər dəniz sahilinə çatdıqları zaman müsəlmanlar artıq getmişdilər. Buna görə də qəzəblənmiş təqibçilər çətinliklə gəldikləri yolu yenidən geri qayıtmalı oldular. Onlar müsəlmanların qaçma xəbərini Məkkənin kafir hakimlərinə çatdırdılar.

Məkkə kafirləri bir neçə müşriki emal olunmuş dəri və başqa hədiyyələrlə Həbəşistana ezam etdilər. Onların planları müsəlmanları pisləmək və Həbəşistan padşahına rüşvət verməklə bütün mühacirləri Məkkəyə qaytarmaq idi. Müsəlman mühacirlər Cəfər ibn Əbu Talibin rəhbərliyi ilə Həbəşistan torpağına çatdılar və o ölkənin padşahı olan Nəcaşi müsəlmanlara sığınacaq verərək onları mehribanlıqla qarşıladı. Mühacirlərin orada məskunlaşmasından hələ çox keçməmişdi ki, Məkkə bütpərəstlərinin nümayəndələri Həbəşistan torpaqlarına daxil oldular. Onlar Nəcaşi ilə görüşüb yaltaqlanaraq dedilər: "Bizim ağılsız kəniz və qulamlarımızdan bir dəstəsi təzəlikdə öz babalarının dinindən üz döndəriblər. Onlar elə bir dinə iman gətiriblər ki, nə bizim dinimizdir, nə də ki, sizin. İndi sizdən rica edirik, bu dəstəni öz ölkənizdən çıxarın və bizə təhvil verin".

Məsihi padşah olan Nəcaşi mühacir müsəlmanların rəhbəri Cəfər ibn Əbu Talibdən soruşdu: "Sizin bu yeni dininiz nədir?" Bu zaman Cəfər Nəcaşi və Məkkə müşriklərinin qarşısında durub dedi: "Ey

padşah! Biz cahiliyyət dövründə bütlərə pərəstiş edən bir qövm idik. Murdar yeyər, iyrənc işlər görərdik. Qonşu və həmpeymanlarımızla pis rəftar edərdik. Güc və qüdrət sahibləri zəiflərin haqqını tapdalayardı. Rəbbimiz bizə bir Peyğəmbər (s) göndərdi. O da bizi Allaha tərəf dəvət etdi ki, Onun təkliyini tanıyaq və yalnız Ona pərəstiş edək. O bizə düz danışmağı, əmanətdarlığı, qohum və qonşuları sevməyi əmr etdi. Bizi pis işlərdən, yalan danışmaqdan, yetim malı yeməkdən çəkindirdi. Həmçinin, bizə namaz qılıb sədəqə verməyi, oruc tutmağı buyurdu.

Biz də onu təsdiq etdik və ona iman gətirdik. Allahın təkliyini bilərək ibadət etdik. Haram saydığını haram, halalını halal bildik. Lakin Qureyş başçıları əzab-əziyyət verməklə istəyirlər ki, biz öz dinimizdən əl çəkib yenə də bütpərəstliyə və pisliklərə tərəf qayıdaq".

Bu zaman Nəcaşi Cəfər ibn Əbu Talibdən soruşdu: "Siz İsa (ə) barəsində nə düşünürsünüz?" Cəfər cavab verdi: "Bizim əqidəmiz Peyğəmbərin (s) Allah tərəfindən gətirdiyidir. O deyir: "İsa (ə) Allahın bəndəsi və peyğəmbəridir. İffətli olan həzrəti Məryəmə (ə.s) ilqa olunan Allahın ruhu və kəlamıdır". Cəfər ibn Əbu Talibin ilahi kəlamlarına vurulan Nəcaşi dedi: "Allaha and olsun ki, düz danışdın". Sonra üzünü müsəlman mühacirlərə tutub dedi: "Gedin! Siz azad və amandasınız. Hər kəs sizi incitsə, cəzalanacaq. Mənə qızıldan bir dağ versələr də sizin əzab-əziyyətinizə razı olmaram." Sonra Nəcaşi öz məmurlarına üz tutub dedi: "Hədiyyələri öz sahiblərinə qaytarın. Bizim hədiyyə libasında verilən rüşvətə ehtiyacımız yoxdur. And olsun Allaha ki, şahlığa çatdığım gündən etibarən heç vaxt rüşvət qəbul etmədim".

Həbəşistana gələn müşrik səfirlər nəinki öz istəklərinə çatmadılar, hətta o ölkənin bütün saray əyanlarının yanında rüsvay və xəcil olaraq öz ölkələrinə əliboş qayıtdılar.

Cənab Cəfər ibni Əbu Talib bütün ömrü boyu Allah Rəsuluna (s) itaət etdi və İslamın yüksəlişi üçün öz canından, malından keçdi. O, həmişə Peyğəmbərə (s) sevindirici qələbə xəbəri ərməğan edərdi. Cəfərin güclü imanı, kamil yəqini, saf qəlbi var idi. Şücaət və mərd-

likdə misilsiz idi. Döyüşlərdə şikar edən şir kimi düşmən ordusunu yararaq ölülərin cəsədindən dağ düzəldərdi. Motə döyüşündə Allahın Rəsulu (s) müsəlman ordusuna rəhbərliyi Cəfərə tapşırdı. O, keçmiş mübarizələrində olduğu kimi döyüş meydanına qədəm qoydu. Motə müharibəsində o kafirlərdən və müşriklərdən çoxunu həlak etdi. Nəhayət, döyüş meydanındaca şəhadətə çatdı. Peyğəmbəri Əkrəm (s) Cəfərin şəhadət xəbərini eşitdikdə mübarək gözlərindən yaş axıdaraq dedi: "Allah Cəfərə iki qanad verdi ki, Behiştdə pərvaz etsin".

Mənbələr:
Məclisi, "Biharul-ənvar", c. 18, səh. 412-415

Qısa tanışlıq:
Adı – Cəfər
Atasının adı – Əbu Talib
Ləqəbi – Təyyar, Zulcənaheyn
Kunyəsi – Əbu Abdullah
Anasının adı – Fatimə binti Əsəd
Şəhadət tarixi – Hicrətin 8-ci ili, Cəmadiul-əvvəl ayı
Şəhid olduğu yer – Şam, Motə döyüşü

BEHİŞT PƏNAHGAHI



Hələ gənclik yaşına çatmamışdı. Cəzbedici və sevimli çöhrəsi vardı. Anası ilə səfərə çıxmışdı. O, öz qohumlarını yaxından görmək üçün anasının qəbiləsinə gedirdi. Qohumlarından onunla həmyaşıd olan oğlanlarla oynamaq istəyirdi. Bir dünya arzusu var idi. Onların qafiləsi məqsədə yaxınlaşırdı. Uzaqdan xurma ağacları və qəbilənin evləri görünürdü. Bir az da irəlilədilər, artıq onları qarşılamağa gələn kişi və qadınlar görünürdülər. Çox çəkmədi ki, qafilənin başına xeyli adam toplaşdı. Qəbilədən olan hər kəs nəzəri ilə öz müsafirlərini axtarırdı. Birdən adamların arasından bir nəfər qışqırdı: "Ehey, Zeyd! Oğlum xoş gəlmisən!" Dəvələrin birində oturan Zeyd yuxarıdan mehriban xalasını görüb sevincindən yerə atıldı və ona sarı qaçmağa başladı. Hər ikisi bir-birini qucaqlayıb, hal-əhval etdilər. Zeyd anasının qəbiləsində ən yaxşı şeylərlə əhatə olunmuşdu və heç bir şeydən məhrum deyildi. O bir neçə gün istirahət etdi, gəzdi, dolandı. Öz yaşıdları ilə bolluca oynadı. Amma şirin, yaddaqalan günləri çox uzun sürmədi və birdən həyat dəftərinin vərəqi çevrildi.

Günlərin bir günü Zeyd oynamaqla məşğul idi. Birdən Bəni Qəyn qəbiləsindən olan bir dəstə quldurun onlara yaxınlaşdığını gördü. Hər şey bir göz qırpımında alt-üst oldu. Kişilərdən çoxu öldürüldü, mal-dövlət qarət olundu, evlərə od vuruldu, bir dəstə adam da quldurlara əsir düşdü. Od və tüstü, toz-torpaq, ah-nalə qəbilənin fəzasını dəyişmişdi. Quldurlardan biri sürətlə öz atını Zeydə tərəf sürdü, köynəyinin arxasından tutub onu yerdən qaldırdı və öz atının üstünə qoyub sürətlə o məntəqədən uzaqlaşdı. O qəmli anlarda Zeyd qışqırıb fəryad edir, kömək istəyirdi. Amma heç kəs ona kömək edə bilmədi. Bir qəbilənin başqa bir qəbilə tərəfindən talan və qarət olunması cahiliyyət dövrünün ən pis, ən vəhşi adətlərindən biri idi. Onların bu hərəkəti İslam dininin zühurundan sonra da uzun müddət davam etmiş idi.

Bir neçə gün sonra quldurlar əsir götürdükləri kişi və qadınları Məkkənin qul bazarına aparıb çox yaxşı qiymətə satdılar. Zeyd bin Harisə də o qulların arasında idi. Həkim bin Həzan adlı bir kişi Zeydi

əziz Peyğəmbərin (s) həyat yoldaşı Xədicə xanım (ə.s) üçün aldı və onu evə apardı. O alicənab xanım da Zeydi Peyğəmbər Əkrəmə (s) bağışladı.

Zeyd Allah Rəsulunun (s) mənzilinə çatdıqda aramlıq hiss etdi, bütün iztirab və həyəcanı aradan getdi. O, artıq əvvəlki kimi qorxmurdu və heç bir şeydən narahat deyildi. Peyğəmbərin (s) mənzilinin çox sadə olmasına baxmayaraq, Zeyd üçün bir aləm səfası vardı. O hətta öz evində belə bu qədər əmin-amanlıq və aramlıq hiss etməmişdi. İslamın böyük Peyğəmbəri (s) Zeydi gülərüz və mehribanlıqla qarşıladı.

O Həzrət (s) onu bir qul kimi deyil, əziz qonaq və saleh övlad kimi sevirdi. Zeydin o müqəddəs evə və o behişt pənahgahına daxil olduğu vaxtdan etibarən, hər gün onun əxlaq və rəftarı dünənkinə nisbətdə daha da kamilləşirdi. Zeyd bin Harisə Peyğəmbərin (s) mənzilində İslam ədəbləri və təlimi ilə tanış olur, İlahi göstərişləri, İslam hökmlərini icra edirdi. Heç bir din ona bu qədər elm və bilik verə bilməzdi. Çünki heç bir müəllim Allah Rəsulu (s) kimi və heç bir məkan da Peyğəmbərin mənzili kimi ola bilməz. Zeyd bin Harisə az bir müddət ərzində Peyğəmbər Əkrəmə (s) o qədər bağlandı ki, artıq heç bir qüvvə Zeydi o Həzrətdən (s) ayıra bilməzdi.

Harisə qarət zamanı oğurlanan Zeydin atası idi. Həmin hadisədən sonra o öz əziz övladını tapmaq üçün bütün şəhər və abadlıqları axtarıb, soraqladı. O vaxta qədər ki, ona övladının Allah Rəsulunun (s) evində qul kimi xidmət göstərməsi xəbərini verdilər. Buna görə də yubanmadan Məkkəyə səfər edib özünü Peyğəmbərin əmisi Əbu Talibin evinə çatdırdı. O, alicənab və qonaqpərvər olduğundan Harisəni səmimi qarşıladı və qonaq etdi. Sonra ondan nə üçün səfər etdiyini soruşdu. Harisə dedi: "Ey Əbu Talib! Mənim övladım sizin qardaşınız oğlu Muhəmmədin (s) yanındadır. Ona de ki, ya oğlumu özümə satsın, ya da onu azad etsin". Bu zaman Əbu Talib Harisə ilə birgə Peyğəmbərin mənzilinə getdi. Zeydin atası öz istəyini bəyan etdi. Allah Rəsulu (s) buyurdu: "Zeyd azaddır, hara istəsə gedə bilər". Sonra Peyğəmbər (s) buyurdu: "Zeydi çağırın, əgər sizi seçsə və get-

mək istəsə, bahasını ödəmədən sizin olsun. Amma əgər məni seçsə və yanımda qalmaq istəsə, onu heç kəsə verməyə razı deyiləm". Peyğəmbər Əkrəmin (s) bu məntiqli sözlərindən riqqətə gələn Haris mehribancasına o Həzrətə (s) dedi: "İnsaflı danışdın və sənin bu təklifin mərdanədir".

Az sonra Zeyd gəldi və Peyğəmbər ona buyurdu: "Bu kişini tanıyırsan?" Zeyd dedi: "Bəli, mənim atamdır". Sonra Allah Rəsulu (s) Zeydə buyurdu: "Məni də tanıyırsan. İndi əgər istəsən atanla birlikdə ailənin və qəbilənin yanına gedə bilərsən, yox əgər mənim yanımda qalmaq istəyirsənsə, qala bilərsən. Seçim sənindir". Nəhayət, Zeyd bin Haris sonda Peyğəmbərlə (s) yaşamağı üstün tutdu və daha öz evinə qayıtmadı. Çünki Peyğəmbər (s) ilə bir saat yaşamağı, dünyanın bütün ləzzətlərindən üstün tuturdu. O, Allah Rəsulunun (s) yanında ən ali mənəvi dərəcələrə çatdı. O, Həzrətin (s) ən imanlı səhabələrindən hesab edilirdi. Zeyd bin Harisə Peyğəmbərin (s) besətindən sonra Allah Rəsuluna iman gətirib müsəlman olan üçüncü kişi idi. O uzun illər Peyğəmbərin yanında qaldı. Nəhayət, Motə döyüşündə (8-ci hicri ilində) İslam ordusuna rəhbərlik edən Zeyd bin Harisə şəhadətə çatdı. Onun şəhadəti münasibəti ilə Peyğəmbər (s) qəm-qüssəyə batdı. Allah Rəsulu (s) Zeydin matəmində göz yaşı axıdaraq buyurdu: "Bu göz yaşları bir dostun öz dostuna qarşı məhəbbət və şövqündən qaynaqlanır".

Mənbələr:

İbni Səd, "Təbəqatul-Kubra", c. 4, səh. 61
Əsqəlani, "Əl-isabə", c.1, səh. 563

Qısa tanışlıq:
Adı – Zeyd
Atasının adı – Harisə
Ləqəbi – Zeydul-hubb
Şəhadət tarixi – Hicrətin 8-ci ili, Cəmadiul-əvvəl ayı,
Motə müharibəsində (Şam şəhərinin yaxınlığında yerləşir)

LALƏ KİMİ



Müsəlmanlardan və Peyğəmbər (s) köməkçilərindən ibarət üç min nəfər Mədinədən kənarda toplaşmışdılar. Onlar Rum ordusu ilə döyüşə gedib cihad etməli idilər.

Müsəlman qoşunu Allah Rəsulunun (s) tövsiyələrini eşitmək üçün səbirsizliklə gözləyirdi. İslamın əziz Peyğəmbəri (s) Allaha həmd-səna və təvəkkül edib, rumlularla müharibənin mühüm nöqtələrini onlara izah etdi. Sonra ən yaxşı səhabələrindən üç nəfəri sərkərdə təyin etdi və belə buyurdu: "Ey Allah yolunun mücahidləri! Bu döyüşdə sərkərdəniz əmim oğlu Cəfər ibn Əbu Talibdir (ə). Onun başına bir iş gəlsə, bayrağı Zeyd ibn Harisə götürsün və qoşuna başçılıq etsin. O da öldürülsə, sərkərdə Abdullah bin Rəvahə olsun". Peyğəmbərin (s) göstərişlərindən sonra İslam ordusu ağır bir döyüş üçün Şam diyarına yola düşdü. İslam Peyğəmbəri (s) yolun yarısınadək onları müşayiət etdi və qoşunu ilə xudahafizləşdi.

Bu zaman Abdullah ibni Rəvahə Peyğəmbərə (s) yaxınlaşdı və ərz etdi: "Ey Allahın Rəsulu (s)! Mənə elə bir söz deyin ki, sizdən moizə olaraq yadda saxlayım".

Həzrət (s) buyurdu: "Sabah sən elə bir məmləkətə daxil olacaqsan ki, orada səcdə edənlər azdır, buna görə də orada çox səcdə et". Abdullah dedi: "Yenə moizə edin". Həzrət (s) buyurdu: "Daim Allahı zikr et, çünki O, istədiyin bütün işlərdə sənə kömək edərdik." Bundan sonra Abdullah Peyğəmbərdən (s) ayrıldı və bu şeri oxudu: "Mən Allahdan bağışlanmaq diləyirəm və Onun yolunda elə bir şəhadət istəyirəm ki, aldığım ağır zərbələrdən bədənimdən qan damlaları axsın. Camaat cəsədimin yanından ötdükdə mənə dua edərək desinlər: "İlahi, onu səadətə qovuşdur". Abdullah ibni Rəvahə göz yaşı tökərək deyirdi: "Mənim dünyaya heç zaman məhəbbətim olmayıb və dünyadan ayrıldığım üçün ağlamıram. Mən özümü Allah qarşısında günahkar bildiyim üçün ağlayıram və Onun lütf və mərhəmətinə ümidvaram". Abdullah möhkəm imanı, kamil yəqini, nümunəvi şücaəti olduğu halda Allah Rəsulundan (s) ayrıldı. Daim Allahı zikr edir, Allah və Rəsulunun (s) rizasından başqa bir şey düşünmürdü.

Müsəlman ordusu Şama çatdıqda düşmən qoşununun yüz min nəfərdən ibarət olduğu bilindi. Hərbi şura təşkil edildi. Bəziləri inamsızcasına bir-birilərinə dedilər: "Düşmən qoşununun sayı bizimlə müqayisə ediləsi deyil. Onların qarşısında dayanmaq qeyri-mümkündür. Çünki rumluların döyüş təcrübəsi də müsəlmanlardan daha artıqdır.

Ən yaxşı tədbir Peyğəmbərə (s) məktub yazıb, onun fikrini bilməkdir. Bəlkə, geri qayıtmağa icazə verdi". İslam döyüşçülərinin sözlərindən bərk narahat olan Abdullah ibn Rəvahə üzünü mömin cəngavərlərə tutub dedi: "Ey müsəlmanlar! And olsun Allaha, siz bura bir məqsəd üçün gəlmisiniz ki, indi ondan xoşunuz gəlmir. Sizlər Mədinədən şəhid olmaq niyyətilə çıxmısınız, indi nə üçün ondan qorxursunuz? Allaha and olsun ki, biz heç zaman düşmənlə silah və at (əldə etmək) ümidi ilə döyüşməmişik. Yalnız Allaha təvəkkül və imanımıza olan etiqadla savaşmışıq. İndi də düşmənlə vuruşmağa hazırıq.

And olsun Allaha, Bədrdə bizim iki atımız, Uhudda isə bir atımız vardı. Bununla belə, düşmənə qalib gəldik. Bu döyüşdə də ya qalib gəlib arzumuza çatacağıq, ya da şəhadətə çatıb şəhid qardaşlarımıza qovuşacağıq..."

Abdullah öz inqilabi çıxışı ilə İslam ordusuna təzə bir nəfəs bəxş etdi və onlar böyük ruh yüksəkliyi ilə düşmənə hücum etdilər. Rum qoşunu ilə İslam ordusu Motə məntəqəsində qarşılaşdı. Qanlı və ağır döyüş baş verdi. O döyüşdə İslam ordusunun ən yaxşı sərkərdələri Cəfər ibn Əbu Talib (ə) və Zeyd bin Harisə şəhidlik dərəcəsinə çatdı. Abdullah ibni Rəvahə qoşuna başçılığı öz öhdəsinə aldı. O, rumlulara hücum edərkən bu şerləri zümzümə edirdi: "Ey nəfs! And içirəm ki, döyüş səhnəsinə çıxacaqsan, xoşuna gəlsə də, gəlməsə də. Ey nəfs! Nə üçün behiştdən qaçırsan, onu sevmirsən? Əgər Allah yolunda şəhid olmasan da yəqin bil ki, ölüm səni gəlib tapacaq. Bu, ölüm qasididir ki, səslənir. Əgər Zeyd və Cəfərin yolunu davam etdirsən, hidayət olacaqsan, əgər bu yolda səhlənkarlıq etsən, bədbəxtliyə düçar olacaqsan".

Abdullah düşmənlər arasında qılınc vurur, onları məhv edirdi. İslam qoşununun önündə döyüşən Abdullahın qəlbində azacıq da olsa qorxu yox idi. Bəzən öz-özünə deyirdi: "Ey Abdullah! Dost və yoldaşların şəhid olduğu halda, sən hələ dirisən?" Nəhayət, Abdullah ibni Rəvahə düşmənlərdən birinin atdığı nizə ilə canını Yaradanına təslim etdi və şəhadət dərəcəsinə yetişdi. O, Allah Rəsulunun (s) xidmətində olmuş, daim o böyük insana itaət etmişdir. Heç zaman öz etiqad və imanında şəkk-şübhə etməmiş, həmişə öz canını Peyğəmbərin (s) canına sipər etmişdi.

Abdullahın rəşadəti bir çox döyüşlərdə İslam ordusunun qələbəsinə səbəb olmuş, o daim müsəlmanları Allahın Rəsuluna (s) itaət etməyə dəvət etmişdir. Peyğəmbər (s) də hər zaman onun üçün dua edər və həssas vəzifələri ona tapşırardı.

Mənbələr:

İbn Hişam, "Sireyi ibn Hişam", c. 2, səh. 223
Subhani, "Furuğe əbədiyyət", səh. 290, 767

Qısa tanışlıq:

Adı – Abdullah
Anasının adı – Kişə
Kunyə - Əbu Muhəmməd, Əbu Rəvahə
Qəbiləsinin adı – Xəzrəc
Şəhadət tarixi – Hicri 8-ci il, Cəmadiul-əvvəl ayı
Şəhadət yeri – Motə (İordaniya yaxınlığında)

DƏRYANIN HƏMDƏMİ



O, İslam Peyğəmbərinə (s) iman gətirən ilk şəxslərdən idi. Besətin əvvəllərində Allah Rəsulu (s) Urqəmin evini İslam təbliğinin qərargahı etməmişdən əvvəl o Həzrətə (s) iman gətirmişdi. O, elə ləyaqətli xanımlardan idi ki, Peyğəmbər (s) onları "Möminə bacılar" adlandırmış, onların on və ya doqquz nəfər olduqlarına işarə etmişdir. Umeysin qızı Əsma təqvalı və iffətli bir xanım idi. O, məsum və pak Əhli-beytin (ə) davamçılarından, vəfadarlarından hesab edilirdi. O vaxt ki, Əsmaya Cəfər ibn Əbu Talibin həyat yoldaşı olmaq iftixarı nəsib oldu, bu böyük nemətə görə Allaha şükür etdi. Qureyş müşrikləri müsəlmanlara əzab-əziyyət vedrikləri zaman İslam Peyğəmbəri (s) Cəfər ibn Əbu Taliblə bir dəstə müsəlmana Həbəşistan torpağına hicrət etməyi buyurdu.

Bu tarixi səfərdə Umeysin qızı Əsma da öz həyat yoldaşı ilə yanaşı Həbəşistana hicrət edib, hər yerdə Cəfərə arxa və yar oldu. İllər ötdükcə, İslam bir çox ölkələrə yayılmış, müsəlmanların sayı isə artmağa başlamışdı.

Allah Rəsulu (s) bir qrup müsəlmanı Cəfər ibn Əbu Talibin rəhbərliyi ilə Şam şəhərindəki Motə məntəqəsinə yolladı. Amma Allah Rəsulu (s) Mədinədə qaldı. Bəzən Peyğəmbər Əkrəm (s) müharibənin gedişatını qeybi yollar ilə müsəlmanlara xəbər verərdi. Bu çətin və yorucu döyüşdə İslam qoşununun rəhbəri Cəfər ibn Əbu Talib şəhadətə yetdikdə, Peyğəmbər Əkrəm (s) çox qəmləndi və Cəfərin matəmində ağladı. Sonra təsəlli üçün o şücaətli və təqvalı sərkərdənin evinə baş çəkdi.

Umeysin qızı Əsma xanım bu hadisəni belə nəql edir: "Cəfərin şəhadəti günü, sübh undan bir miqdar xəmir yoğurdum. Uşaqlarımı yuyundurub, onların üst-başını təzələyib ev işləri ilə məşğul oldum. Elə bu zaman Allah Rəsulu (s) bizim evimizə gəlib Cəfərin övladlarını görmək istədi. Mən də o Həzrətə (s) çox ehtiram edib uşaqları onun xidmətinə apardım. Gördüm ki, onları öz sinəsinə sıxdı, iylədi və gözlərindən yaş axıtdı". Ərz etdim: "Ey Allahın Rəsulu! Onların

başına yetimlik əlini çəkirsən. Məgər Cəfərdən sizə xəbərmi çatıb?!”

Allah Peyğəmbəri (s) buyurdu: “Bəli, bu gün şəhid oldu”. Mən ağladım. Rəsuli Əkrəm (s) buyurdu: “Ey Əsma, ağlama! Bil ki, Allah Cəfərə iki qanad bəxş edib ki, Behiştdə istədiyi yerə pərvaz etsin”.

Cəfər ibn Əbu Talibin şəhadətindən sonra Əsma Əbu Bəkrin həyat yoldaşı oldu və evliliıdən bir müddət sonra Allah bu təqvalı xanıma Məhəmməd bin Əbu Bəkri əta etdi. Məhəmməd həzrət Əmirəl-möminінin (ə) sadiq və vəfalı səhabələrindən olmuşdur.

Baxmayaraq ki, Əsma başqa bir şəxslə evləndi, amma heç vaxt Allah Rəsulunun Əhli-beyti (ə) ilə rabitəsini kəsmədi. Bütün bunlar onun Peyğəmbər ailəsinə bəslədiyi mehr-məhəbbətinin nişanəsi idi.

İslamın əziz Peyğəmbəri (s) vəfat etdikdən sonra imam Əlinin (ə) müxalifət və etirazı bəzilərinin xoşuna gəlmədikdə, gizlincə o Həzrəti (ə) öldürmək qərarına gəldilər. Əmirəl-möminінin (ə) düşmənlərindən biri olan Xalid bin Vəlid çox münafiq və muzdur bir adam idi. O dedi: “Mən özüm Əlini (ə) öldürüb, onun həyatına son qoymağa hazıram”.

Düşmənlərin bu alçaq planından xəbərdar olan Əsma o Həzrəti (ə) bu gizlin xətərdən agah etmək qərarına gəldi. Buna görə də öz xidmətçilərindən birini həzrət Əlinin (ə) yanına göndərdi ki, bu ayəni oxusun: “Şəhərin əyan-əşrəfləri sənin əməlin üçün şura çağırıblar ki, səni öldürsünlər. Odur ki, şəhərdən çölə çıx, mən sənə xeyir arzulayanlardanam”. Həzrət Əli (ə) oxunan ayələrdən başa düşdü ki, şəhərin münafiqləri onu öldürmək niyyətindədirlər. Buna görə də o Həzrət (ə) Əsmaya cavabında buyurdu: “Narahat olma, onlar müvəffəq olmayacaqlar. Çünki Peyğəmbər (s) mənə xəbər verib ki, gələcəkdə əhdi sındıranlardan (nakəsin), zalimlərdən (qasitin) və xəvariclərdən (mariqin) bir dəstə mənim əlim ilə həlak olacaqlar. Əgər onlar bu hiylələrinə müvəffəq olsalar və məni öldürsələr, onda onları kim öldürəcək?”

Həmçinin, Əsma həzrəti Fatimeyi-Zəhra (ə.s) ilə də çox yaxın və səmimi idi. O, bütün müsibətlərdə və müşküllərdə onun həmdəmi

olmuşdu. Həzrəti Zəhra (ə.s) şəhid olduğu zaman Əsma Fizzə ilə birlikdə orada idi. Həzrət onlara vəsiyyət etdi: "Dünyadan köçdüyüm zaman həzrəti Əmirəl-möminin (ə) ilə birlikdə mənə qüsl verin və heç kəsə icazə verməyin ki, mənim cənazəmdə iştirak etsin".

Əsma sonradan imam Əlinin (ə) həyat yoldaşı oldu və o Həzrətə (ə) Ovn, Yəhya adlı iki oğlan uşağı bəxş etdi. Ovn Aşura günü vilayətin müdafiəsi yolunda şəhadətə yetişdi. Həmçinin digər övladı olan Muhəmməd ibn Əbu Bəkr İslamın və Peyğəmbərin (s) yüksək hədəflərinin müdafiəsi uğrunda şəhid oldu. Əsma İslam mədəniyyətinin yayılması və inkişafı yolunda fəal iştirak edib, məsum Əhli-beytin (ə) ailəsinə köməyini heç zaman əsirgəmədi. Umeysin qızı Əsma elə mömin və dəyərli qadınlardan idi ki, onun adı İslam tarixində həmişə yaxşılıqla çəkilir.

Baxmayaraq ki, bir qadın idi, bununla belə imamət və vilayəti öz əsrinin zalımları müqabilində mərdliklə qorudu. Əhli-beytə (ə) qarşı olan məhəbbətinə görə adı tarixdə əbədi qaldı.

Mənbələr:
İbni Səd, "Təbəqat", c. 8, səh. 281
Əmin Amuli, "Əyanuş-şiyə", c. 3, səh. 306
Məclisi, "Biharul-ənvar", c. 43, səh. 181

Qısa tanışlıq:
Adı – Əsma
Atasının adı – Umeys

QOCA FARS



Enlikürək və ucaboylu idi. Saç-saqqalı ağarmışdı. Əynində ağ libası vardı. Bir yəhudi qadının xurmalığında işləyirdi. Ağacdan xurmaları yığır, yeni tinglər əkir, bağı sulayırdı. Az danışan, lakin çox güclü idi. Yəhudi qadın heç vaxt ondan narazı qalmır və ona əsəbiləşmirdi. Çünki iranlı qulu dürüst və işgüzar adam idi. Qoca qul həzrəti Məsihin (ə) dininə inanır, zəmanəsinin ən yaxşı mömin-lərindən hesab olunurdu. Məsihi bir rahib ona demişdi: "Allahın sonuncu Peyğəmbərinin (s) zühurunu gözlə və onu görsən dininə iman gətir, ona tabe ol".

O, böyük çətinliklə özünü İrandan Hicaza çatdırmışdı ki, Allahın sonuncu elçisini görsün.

Onu Yəsribə gətirən karvanbaşılar öz müsafirlərini qul kimi bağ sahibi olan yəhudi qadına satmışdılar. Məsihi kişi ilahi elçini görmək ümidilə ən ağır çətinliklərə dözür, amma öz fikirlərini heç kimlə bölüşmürdü.

Günlərin bir günü bu qoca kişi xurma ağaclarını sulayarkən sa-hibinin Mədinə yəhudilərindən biri ilə söhbət etdiyini eşitdi. Onlar özünü sonuncu peyğəmbər adlandıran Muhəmməd (s) adlı biri haq-da danışırdılar. Qəfildən bütün varlığını sevinc hissi bürüdü. O bu qəfil xoş xəbəri eşidən kimi şadlığından yerə-göyə sığmadı, Allaha şükür etdi və yeni xəbərlər eşitmək ümidilə öz gündəlik işinə davam etdi. Xurma almaq üçün xurmalıqlara gələn tacirlər hər dəfə o qa-dına Muhəmməd (s) haqqında yeni məlumatlar verir, məsihi kişi də diqqətlə onların sözlərinə qulaq asırdı. Bütün əlamətlər düz idi. O, çox tezliklə Muhəmməd (s) ilə görüşməli idi. Məsihi kişi əvvəldən də öz böyük ustadından eşitmişdi ki, axirəz-zaman peyğəmbərin üç nişanəsi var. Birincisi budur ki, o, sədəqə götürməz, ikinci nişanəsi hədiyyəni qəbul edər, üçüncü nişanəsi də kürəyində iki çiyni arasın-da nübuvvət möhürünün olmasıdır.

Günlərin bir günü yəhudi bağ sahibi bir neçə saatlıq bağı tərk

etdi. Məsihi kişi iki qabı, öz payından olan xurma ilə doldurub həzrəti Muhəmmədin (s) yanına tələsdi. O, bağa tez qayıtmalı idi. Çünki bağ sahibi qulunun icazəsiz getdiyini bilsəydi cox əsəbiləşərdi.

Məsihi kişi Mədinənin küçə və bağlarını tələsik arxada qoyur, şövqlə irəliləyirdi. O, Rəsuli Əkrəmin (s) tərifini o qədər eşitmişdi ki, onu görmək üçün dəqiqələri sayırdı. Peyğəmbərin (s) Mədinənin hansı yerində daha çox olduğunu bağ sahiblərinin söhbətindən başa düşmüşdü. Oraya gedirdi ki, nişanələrlə tanıdığı sonuncu Peyğəmbərlə (s) görüşsün. Xeyli piyada getdikdən sonra Muhəmmədin (s) vaxtının çox hissəsini keçirirdi bir məhəlləyə çatdı.

Ərəblərdən bir dəstəsi İslam Peyğəmbərinin (s) ətrafına toplaşmışdı. O Həzrət (s) onlar üçün söhbət edirdi. Onlar əlində xurma tutmuş məsihi kişini görəndə təəccüblü nəzərlərini ona zillədilər. Bir-birlərinə: "O kimdir? Bura nə üçün gəlib? Qəribdir, əvvəllər onu görməmişik…" - bu sözləri deyirdilər.

Peyğəmbərin (s) gözü o qəribə sataşdıqda salam verdi və onu xoş üzlə qarşıladı. Allah Rəsulunun (s) xoş rəftarından sevinən kişi onu görməklə rahatlıq, aramlıq hiss etdi. Peyğəmbərin (s) salamını aldı. Amma o hələ bilmirdi ki, bu şəxs Allahın sonuncu elçisidir. Buna görə də bir qədər irəli getdi və xurma dolu qablardan birini Peyğəmbərə (s) uzatdı. Muhəmməd (s) o qabı götürüb xurmaları əshabı arasında böldü, amma özü ondan yemədi. Sonra məsihi kişi o biri qabı da Həzrətə (s) verdi və dedi: "Bu xurmalar sizə hədiyyədir. Bundan yeyin". Həzrət (s) hədiyyəlik xurmalardan yedi, ətrafındakı dostlarına da təklif etdi. Məsihi kişi nişanələrdən ikisini gördü, amma bilmirdi ki, üçüncü əlaməti necə görsün. Çünki Peyğəmbərin (s) əynində libası və əbası vardı və o Həzrətin (s) çiyinləri arasında olan nübuvvət möhürünü görə bilməzdi.

Məsihi kişinin fikrindən agah olan Allah Rəsulu (s) təbəssüm etdi və yerindən qalxdı. Paltarının yuxarısından bir qədər açdı və mübarək çiyinləri arasında yerləşən təbii nübuvvət möhürünü –

xalını o kişiyə göstərdi. O, üçüncü nişanəni görcək sonuncu ilahi elçi (s) qarşısında diz çökdü, Həzrətin (s) əllərini öpdü, sevincindən ağladı. Əziz Peyğəmbərə, (s) onun dininə iman gətirdi və müsəlman oldu. Peyğəmbər (s) də onun adını "Salman" qoydu. Bir müddət sonra Muhəmməd (s) Salmana özünü sahibindən alıb azad etmək üçün kömək etdi. Salman İslam Peyğəmbərini (s) və həzrət Əlini (ə) çox sevir, daim Əhli-beytin (ə) müdafiəsi üçün çalışır, cihad edirdi. O bu iki əzəmətli insanın nəzarəti altında elə tərbiyə aldı ki, ən ali mənəvi məqama çatdı. Peyğəmbər (s) onun barəsində buyurmuşdu: "Salman biz Əhli-beytdəndir". Salman Fars torpağının ulduzu idi ki, Peyğəmbərin (s) müqəddəs vücudunun kənarında parladı. O Allah bəndəsi illərlə Əhli-beytin (ə) eşqilə yaşadı və onların sevgisi ilə dünyadan köçdü.

Mənbə:

İbn Sə'd, "Təbəqatul-Kubra", c. 4, səh 75
İbn Əbil-Hədid, "Nəhcul-bəlağənin şərhi", c. 18, səh. 37
Yusifi Ğərəvi, "İslam tarixinin təhqiqi", c. 3, səh. 209

Qısa tanışlıq:

Adı – Salman
Kunyəsi – Əba Abdullah
Doğulduğu yer – İran, İsfahanın Ciy kəndi
Vəfat ili – Hicri 35-ci il
Vəfat yeri – İraq, Mədain

İLK TƏNHA SÜVARİ



İslam Peyğəmbəri (s) Məkkədən Mədinəyə hicrət etmişdi. Artıq Məkkə müşrikləri Muhəmmədi (s) görmür, əvvəlki kimi ona əzab verib incidə bilmirdilər. Mədinə şəhəri müsəlmanlar üçün daha əmin idi.

Onlar gündən-günə güclənir, sayları artırdı. Amma Məkkədə hələ də möminlər qalmışdı və onlar özlərini Allahın Rəsuluna (s) çatdırmaq istəyirdilər.

Onlar Məkkə camaatı içində iman və etiqadlarını aşkar etməyə cürət tapmırdılar. Çünki şəhərin kafirləri bundan xəbər tutsaydılar, heç düşünmədən onları öldürərdilər. Qəlblərində Peyğəmbərə (s) sonsuz kin-küdurət bəsləyən müşrik başçılar hər gün bir yerdə toplaşır, İslamı məhv etmək üçün şeytani planlar cızırdılar. Bu, artıq onların gündəlik işinə çevrilmişdi.

Miqdad ibn Əmr Məkkədə qalmış müsəlmanlardan idi. O, həzrət Rəsulu (s) görmək üçün dəqiqələri sayır, Məkkədən Mədinəyə qaçmaq üçün münasib fürsət axtarırdı. Miqdad kimi bir şəxs üçün Peyğəmbərdən (s) uzaq qalmaq çox çətin idi. Məkkə müşrikləri bütün yollara nəzarət edir və əgər kimdənsə şübhələnsəydilər, onu tutub saxlayırdılar. Kafirlərin başçıları arasında Əbu Cəhl hamıdan daha təhlükəli və rəhimsiz idi. Bir gün Əbu Cəhl öz zalım oğlu Əkrəməyə dedi: "Oğlum! Bu gün sənə mühüm bir iş tapşırmaq istəyirəm. Öhdəsindən gələrsənmi?" Əkrəmə qürur və təkəbbürlə cavab verdi: "Ata! Əmr et, yerinə yetirim". Əbu Cəhl dedi: "Elə indicə Məkkə cəngavərlərindən iki yüz nəfər seç və Mədinəyə hücum et. İstəyirəm müsəlmanların işini bitirim. Heç kəsi sağ buraxma. Hətta Muhəmmədi (s) də. İndi şəhərin böyüklərinin gözü sənin şücaət və qəhrəmanlığına dikilib. Tələs, vaxt itirmə".

Əkrəmə qoşun toplamağa başladı. Şəhər ətrafından ona qoşulmağa gələn müşrik döyüşçülərin səs-küyü aləmi bürümüşdü. Miqdad Məkkə kafirlərinin niyyətindən və alçaq planından xəbər tut-

anda dərhal yerindən qalxdı, müşriklər kimi döyüş paltarı geyindi, atına minib özünü kafir əsgərlərə çatdırdı. Məkkə qoşununun sayı iki yüz nəfərə çatdıqda Əkrəmə hərəkət əmri verdi. Onlar Mədinəyə tərəf yol düşdülər.

Əziz Peyğəmbər (s) düşmənin niyyətindən xəbərdar idi. O, düşmən qüvvələrinin qarşısını almaq üçün Ubeydə ibn Harisin başçılığı ilə altmış nəfərlik İslam qoşununu Mədinədən yola saldı. Mübariz müsəlmanlar Mədinə şəhərindən kənarda düşərgə salıb düşməni gözləməyə başladılar.

Nəhayət, düşmən əsgərləri Mədinəyə yaxınlaşdılar. Onlar gözləmədikləri bir zamanda cəngavər müsəlmanlarla qarşılaşdılar. O anlarda İslam qüvvələri elə bir müqavimət göstərdi ki, Məkkə müşrikləri geri çəkilib qaçmağa məcbur oldular.

O qarışıqlıqda Miqdad fürsətdən istifadə edib düşmənlərdən ayrıldı və İslam əsgərlərinə tərəf qaçdı. Müsəlmanlar Miqdadı tanıdılar və onu xoş üzlə qarşıladılar. Bu döyüşdə iki hadisə İslam ordusunun böyük sevincinə səbəb oldu. Birincisi düşmənin məğlub olub qaçması, ikincisi isə Miqdadın öz müsəlman qardaşlarına qovuşması idi. Mübariz möminlər Mədinəyə qayıdanda əvvəlcə Allah Rəsulunun (s) xidmətinə yetişdilər. Peyğəmbər Əkrəm (s) də Miqdadı görməsindən və kafirlərin məğlubiyyətindən çox xoşhal oldu. İtirdiyini tapan Miqdad da Allaha şükür etdi və Peyğəmbərin (s) yanında qaldı. Miqdad bu barədə deyir: "Mədinəyə daxil olanda, əziz Peyğəmbər (s) bizi on nəfərlik qruplara böldü. Mən daim Peyğəmbərin yanında olan onluğa daxil idim. Biz maddi cəhətdən çox çətinliklərlə üzləşdik. O zamanlar bizim bir qoyundan başqa heç bir şeyimiz yox idi..."

Miqdad əziz Peyğəmbərin (s) və Əlinin (ə) səhabələrindən idi. O həmişə ən yaxşı şiələrdən və ən şücaətli müsəlmanlardan sayılırdı. O, səadət və hidayəti o böyük insanlara xidmət etməkdə görür, Əhli-beyti (ə) sevməsilə fəxr edirdi. Yalnız Əhli-beyti (ə) razı salacaq

işlər görürdü. Həzrət Əlinin (ə) haqqı qəsb olunanda Miqdad bəzən mövlası Əliyə (ə) ərz edirdi: "Əli can, mənə nə əmrin var? Allaha and olsun ki, əgər qılınc çəkmək əmr etsən, çəkərəm. Əgər bu işdən çəkindirsən, itaət edərəm". Miqdad Əlinin (ə) haqqını qəsb edənlərə müqavimət göstərib, daim vilayəti müdafiə etdi, münafiq və qəsbkarlardan heç vaxt qorxub çəkinmədi. O, müsəlmanlar arasında "İlk tənha süvari" kimi tanınmışdı. Həzəri Əli (ə) onun haqqında buyurmuşdur: "Bədr döyüşündə müsəlmanların yeganə süvarisi Miqdad idi". Miqdad uzun illər ismət və paklıq xanədanına xidmət etdikdən sonra yetmiş yaşında dünyasını dəyişdi.

Mənbələr:

Məclisi, "Biharul-ənvar", c. 28, səh. 297
İbn Səd, "Təbəqat", c. 3, səh. 162
Məhəməd Hadi Yusifi Ğərəvi, "Məvsuətut-tarixil-islami"

Qısa tanışlıq:

Adı – Miqdad
Kunyəsi – Əbu Mə`bəd
Vəfat tarixi – Hicri 33-cü il
Həyatı – 70 il
Dəfn yeri – Bəqi qəbiristanlığı

İBRAHİM KİMİ



Məkkə müşrikləri içərisi odunla dolu olan bir çalanın ətrafında toplaşmışdılar. Onlar dəli kimi bağırırdılar. Tamaşaçıların sayı isə get-gedə artırdı. Şəhərin bütpərəstləri edama tamaşa etmək üçün tələsik özlərini çalanın kənarına çatdırırdılar. Peyğəmbərin besətindən çox az bir zaman keçmişdi. Cahiliyyətin iyrənc rəftarları hələ də qalmışdı. Şirk və bütpərəstliyin nişanələri şəhərin hər yerində gözə dəyirdi. O qaranlıq dövrdə heç kəsin bütpərəstlik ilə və müşriklərlə müxalifət etməyə haqqı yox idi. Amma Allah Rəsulu (s) və onun ardıcılları daim müşrik camaatın qondarma dinləri ilə müxalifət edirdilər. İlahi peyğam isə yalnız bu idi: "Ey camaat! Cansız bütlərə pərəstiş etməkdən əl çəkin və tək olan Allaha sitayiş edin!" Buna baxmayaraq, Məkkə kafirləri bir anlıq olsa belə, daş və taxtadan düzəldilmiş məbudlara sitayiş etməkdən əl çəkmək istəmirdilər.

Tamaşaçıların sayı artdıqda birdən kafir başçılarından biri qışqırdı: "Əmmarı gətirin!" O kobud qışqırtıdan sonra birdən səsküy kəsildi.

Müşriklərdən bir neçəsi bir məhbusla kütləni yararaq çalanın yanına çatdılar. O məhbus Əmmar idi. İşıqlı gözləri və hündür boyu var idi. Allah Rəsulunun (s) səhabələrindən hesab olunurdu. Müşriklər onun ata-anasını müsəlman olduqları üçün işkəncə verərək şəhid etmişdilər. İşkəncələrin izləri yarıçılpaq bədənində görünürdü. Əmmarın əl-ayağını zəncirlə bağlamışdılar. O, tək olan Allaha ibadət etdiyi və İslam Peyğəmbərinin (s) tərəfdarı olduğu üçün yandırılmalı idi. Müşriklər bu əməlləri ilə digərlərinə də göz dağı vermək istəyirdilər ki, heç kəs Muhəmmədə (s) tərəfdar olmağı və Allaha pərəstiş etməyi ağıllarından belə keçirməsinlər. Güclü imanı və nurani qəlbi olan Əmmar zalımların müqabilində müqavimət göstərir, təslim olmurdu. O, öz kamil etiqadından və yəqinindən bir an da belə, peşman deyildi və öz nicatını bunda görürdü.

Möminlər Allah Rəsuluna (s) xəbər vedrilər ki, müşriklər Əmmar

Yasiri yandırmaq istəyirlər. Peyğəmbər Əkrəm (s) bu xəbəri eşidəndə çox narahat oldu. Tez öz yerindən qalxdı və cəza meydanına tərəf hərəkət etdi. Ora çatanda hamının nəzəri ona dikildi. Müşriklər Peyğəmbərin (s) ora gəldiyini görəndə, belə qərara gəldilər ki, Əmmarı elə onun gözləri önündəcə yandırsınlar. Onlar odunlara od vurdular. Az sonra çalanın içində alov qızardı. Müşriklər Əmmarı atəşə atmaq üçün onun əl-ayağından yapışdılar. Allah Rəsulu (s) Əmmarın və onun ailəsinin kafirlərin önündə müqavimət göstərməsindən, onların iman və təqvalarından xəbərdar idi. O, möminlərin ən vəfalısının öldürülməsini görmək istəmirdi.

Buna görə də mübarək əllərini səmaya qaldırıb Allaha belə dua etdi: "Pərvərdigara! Peyğəmbərin olan İbrahimə (ə) Nəmrudun atəşindən nicat verdiyin kimi, Əmmarı da yandırıcı şölələrdən hifz et və alovu onun üçün soyuq et".

Bu zaman bağışlayan və mehriban olan Allah Peyğəmbərin (s) duasını müstəcəb etdi. İsti və yandırıcı atəş Əmmar üçün soyudu. Alovlu şölələr onun bütün bədənini bürüdüyü halda, atəşin heç bir zərəri onun nazənin bədəninə dəymirdi. O, İbrahim (ə) kimi alovun içində durmuşdu, amma yanmırdı. Qara və cilovsuz şölələrin arasından Allah Rəsulunun (s) müqəddəs vücuduna tamaşa edib gülümsəyirdi.

Bütpərəst müşriklər bu ilahi möcüzəni öz gözləri ilə gördükdə nəinki Allah Rəsuluna iman gətirmədilər, hətta ona qarşı kinküdurətləri daha da artdı. Amma Allah o zaman kafirlərin hiyləsini puç elədi. Peyğəmbərin (s) imanının və sözünün düz olduğunu bütün şahidlərə isbat etdi. O hadisədən sonra Əmmar Peyğəmbərin (s) yanına qayıtdı və bir daha heç bir batil qüdrət o səbir və dözüm dağını əsir götürə bilmədi.

Allah Rəsulu (s) və Əmirəl-möminin (ə) tərbiyə etdiyi Əmmar Yasir həmişə İslamı və Muhəmmədi (s) müdafiə edir, həqiqətləri azğın camaata çatdırırdı. Onlara o qədər səadət və xoşbəxtliyin

yolunu göstərdi ki, Peyğəmbər Əkrəm (s) onun barəsində buyurdu: "Əmmar haqq ilə və haqq də Əmmar ilədir". Əmmar Yasir həmişə Peyğəmbər (s) və Əmirəl-möminin (ə) əmrinə tabe idi. Heç bir zaman o Həzrətlərlə (ə) müxalifət etməz, onlara itaətsizlik göstərməzdi. O, müşriklərdən qorxmayaraq öz iman və etiqadını aşkar edən ilk möminlərdən idi. Əmmar Yasir Əmirəl-möminin (ə) vilayəti və Əhli-beytin (ə) məhəbbəti ilə iftixar edirdi.

Daim kafirlərlə döyüşdə iştirak edən Əmmar Yasir vilayətin müdafiəsi yolunda qılınc çalaraq fədakarlıq nümayiş etdirirdi.

Nəhayət, hicrətin 37-ci ilində Siffeyn müharibəsində İslamın (ə) bu həqiqi əsgəri Müaviyənin ordusunun əli ilə şəhadətə çatdı və onun uca ruhu səmalara yüksəldi.

Mənbələr:

İbni Kəsir, "Kamil", c. 3, səh. 310
Qunduzi, "Kənzul-ummal", c. 16, səh. 147
Məhəmməd Hadi Yusifi Ğərəvi, "Məvsuətut-tarixil-islami"

Qısa tanışlıq:

Adı – Əmmar
Kunyəsi – Əbul-Yəqzan
Şəhadət tarixi – Hicrətin 37-ci ili
Ömrü – 94 il
Şəhadət yeri – Siffeyn məntəqəsi

VƏHY NƏSİMİ



Arıq və qısa boylu idi. Amma çox nurani və aram siması var idi. Allah Rəsulunun (s) ən yaxın səhabələrindən hesab edilirdi. Mömin dostlarını görmək üçün Məkkə küçələrindən ötüb keçirdi. Hər tərəfə baxanda büt və bütpərəstlik, şirk və aludəçilik hiss olunurdu. Camaat arasında xurafat əqidə yayılmış, sözləri yalnız qətl, qarət, şirk və şeytani tədbirlərdən ibarət idi. İnsanın qəlbi və ruhu yalnız dostların Qur'an məclisində aramlıq tapırdı. O elə yerə gedirdi ki, Allah Rəsulunun (s) dostları orada gizli şəkildə bir yerə toplaşıb ilahi ayələr oxuyurdular. O günah qaranlıqları və çirkin cəmiyyətdə qəlblərə nuraniyyət bəxş edən yeganə şey Qur'an tilavəti idi.

Peyğəmbər (s) səhabələri bir otağın pəncərəsindən bütün getgəlləri nəzarət altına almışdılar. Onlar Abdullah ibn Məsuddan nigaran idilər, onun başına bir iş gəlməsindən qorxurdular. Çünki Məkkə şəhəri müsəlmanlar üçün əmniyyətli deyildi. Nəhayət, Abdullah gəlib çıxdı. Dostları onu çox səmimi qarşıladılar. Sonra müsəlman qardaşlar keçən günlərdə olduğu kimi bir-birinin dövrəsində oturub Qur'an oxumaqla məşğul oldular.

İlahi ayələr ruhlandırıcı və qəlbəyatan idi. Heç kəs Pərvərdigarın kəlamını tilavət etməkdən doymurdu. Onlar əzbərlədikləri ayələri növbə ilə bir-birlərinə oxuyurdular. Cahiliyyətin qaranlıq illərində bu əməl Allaha yaxınlaşmaq üçün ən yaxşı yol idi. Ayələrin nuru onların qəlblərinə səfa və təravət bəxş edir, onların pak ruhlarını aram edirdi. Qur'an qiraəti məclisi sona yetdikdən sonra möminlərdən biri dedi: "Qardaşlar! Kaş ki? bu ayələr uca səslə müşriklərin qarşısında oxunulaydı və onların bərk, qara ürəkləri İlahi kəlmələrlə tanış olaydı". Möminlərdən başqa birisi dedi: "Bu? asan iş deyil. Muhəmmədin (s) düşmənləri var ikən, bu iş qeyri-mümkündür".

Abdullah ibn Məsud dedi: "Sonunda bir nəfər gərək bu işin bütün xətərlərini qəbul etsin. Əks təqdirdə? gərək ayələri həmişə öz evlərimizin küncündə oxuyaq. Gərək bir nəfər fəryad etsin və İlahi

kəlamı bu camaatın qulağına çatdırsın...”

Sonra Abdullah ibn Məsud dedi: “Tək olan Allaha təvəkkül edərək mən bu işi icra edərəm”.

Dostları dedilər: “Çox güman ki, müşriklər ayələri eşitdikdə qəzəblənəcəklər və sənin canın təhlükədə olacaq. Gərək bu işi tanınmış və məşhur qəbilədən olan bir şəxs etsin ki, qohumları onu qoruya bilsinlər”.

Öz qərarında möhkəm olan Abdullah müsəlman dostlarına dedi: “Mən müşriklərdən qorxusuz və hürküsüz halda onların yanına gedib uca səslə ilahi ayələri onların gözü qarşısında qiraət edəcəyəm”.

Ertəsi gün sübh Abdullah təmiz və səliqəli libas geyinərək Məscidul-Hərama yollandı. Həmişə olduğu kimi hər yer səs-küylü idi və müşrik başçıları qədim adətləri üzrə bir-birinin başına toplaşıb söhbət edirdilər.

Bir qədər sonra o, qadir olan Allaha təvəkkül edib bu cür fəryad etdi: “Bismillahir-rahmənir-rahim. Ərrahmən * Əlləməl Qur’an * Xaləqal-insan əlləməhul-bəyan *...”

Bir anlıq araya sükut çökdü. Müşriklər Qur’anın can bəxş edən sədasını eşidəndə bir qədər fikrə getdilər və pıçıldadılar: “Bu sözləri deyən kimdir?” – Abdullah ibn Məsud. O nə dedi? “Muhəmmədin gətirdiklərindən bir parçasını oxuyurdu...”

Birdən qəzəb və nifrət onların bütün vücudunu başdan-ayağa bürüdü və dedilər: “Bu utanmaz kişini öldürün! O özündə bu cürəti necə tapıb ki, camaatın arasında Muhəmmədin sözlərini təkrar edir? Onu susdurun...”

Sonra bütün kafirlər Abdullaha tərəf hücum etdilər – yumruq, təpik, söyüş, təhqir...

Elə bu an hay-küy qalxdı. Az sonra müşriklər oranı tərk edəndə Abdullahın yarıcan, qana bulaşmış bədəni yerdə qaldı. Dostları bu ürəkağrıdan mənzərəni görüb dedilər: “Biz bu barədə sənə demişdik, amma sən bizim sözlərimizə əhəmiyyət vermədin”. Abdullah dedi:

“İndiyə qədər Allah düşmənləri mənim nəzərimdə bu qədər kiçik və alçaq olmamışdılar”.

Abdullah iman və yəqində misilsiz idi. O, İslam Peyğəmbərinin (s) vəfatından sonra həzrət Əmirəl-möminin Əlinin (ə) xidmətində duraraq canfəşanlıq etdi. Dini dəyərlərin və vilayətin müdafiəsi yolunda nəhayət dərəcədə çalışdı.

Abdullah bin Məsud İslamı öz meyli və şövqü ilə qəbul etmiş ləyaqətli cavanlardan idi. O, bir çox müharibələrdə iştirak etmiş və şücaətdə, qorxmazlıqda, mərdlikdə müsəlmanların dilinin əzbəri idi. Bədr döyüşündə bu alicənab şəxs Allah Rəsulunun (s) ən qatı düşmənini öldürə bilmişdi. Əbu Cəhl işkəncə və əzab verməkdə, rəhimsizlikdə məşhur idi, onu Abdullah ibn Məsudun güclü qolları öldürdü.

O, daim Peyğəmbər Əkrəmin (s) və həzrət Əmirəl-möminin (ə) diqqət mərkəzində idi. Nəhayət, illərlə səbir, müqavimət, cihad və canfəşanlıqdan sonra Abdullah ibn Məsud İslam dininin müdafiəsi yolunda çox işkəncələrə məruz qaldı, xilafəti qəsb edənlərin əli ilə canını can sahibinə tapşırdı və şəhadətin uca məqamına yetişdi.

Mənbələr:

“Sireyi ibni Hişam”, c. 1, səh. 337
“Usdul-ğabə”, c. 3, səh. 257
İbni Əbil-Hədid, “Şərh Nəhcul-bəlağə”, c. 14, səh. 142

Qısa tanışlıq:

Adı – Abdullah
Atasının adı – Məs’ud
Qəbiləsinin adı – Huzeyl
Şəhadət tarixi – Hicrətin 32-ci ili

QARA PƏRVANƏ



Qaradərili bir qulu çılpaq vəziyyətdə isti və yandırıcı qumun üzərində uzatmışdılar. Sinəsi üstünə böyük bir daş qoyulmuşdu. Əlində şallaq olan bir kişi ayağını o daşın üzərinə basaraq bağırırdı: "Bilal! Əgər öz imanından əl çəkməsən öldürüləcəksən". Çox yaralanmış və bədəni taqətdən düşmüş Bilal yalnız bir sözü təkrarlayırdı: "Əhəd, Əhəd!...Yəni, şəhadət verirəm ki, tək olan Allahdan başqa heç bir məbud yoxdur".

Məkkə camaatı hər gün o qaradərili qulun sahibi tərəfindən işkəncə olunduğunun şahidi olurdu. Amma "Üməyyə" kimi sitəmkarların, zülmkarların qorxusundan söz danışmağa cürət etmirdi.

Daşlar isti yay günəşinin şüaları altında yanmış və qaralmışdı. Heç kəsin o üzücü istinin altında işkəncəyə tamaşa etməyə taqəti qalmamışdı. Amma camaatın hamısı gərək bu mənzərəyə yaxşı-yaxşı baxıb ibrət dərsi alaydı. Müşrik və bütpərəstlərin fikrincə, bu, Muhəmməd (s) və onun dininə iman gətirən kəslərin layiqli cəzası idi.

Üməyyə Məkkə müşriklərinin ən sitəmkar və rəhimsiz ağalarından biri idi. O, heç kəsin Muhəmmədə (s) iman gətirməsini istəmirdi. Bilala şəhər camaatının gözü önündə işkəncə verirdi ki, heç kəs müsəlman olmaq fikrinə düşməsin.

Gecə bütün bütpərəstlərin və azğınların yuxuya getdikləri bir vaxtda Bilal gizlincə Allah Rəsulu (s) ilə görüşdü. Muhəmmədin (s) ilahi sözləri onun qəlbinə, ruhuna yatdı və o, Həzrətə (s) iman gətirdi. Bu böyük hadisə Üməyyəni çox qorxuya saldı. Üməyyə ona dedi: "Bilal! Dünən ürəyim istəyən kimi sənə işkəncə verə bilmədim, amma bu gün onun əvəzini çıxaram. De görüm, hələ də Muhəmmədə və onun sözlərinə inanırsan?!" Bilal cavabında dedi: "Ey Üməyyə! Mən Peyğəmbərə (s) öz həvayi-nəfsim üzündən iman gətirməmişəm. Allaha and olsun ki, onun dinindən əl çəkmərəm. Bil ki, ən ağır əzab-əziyyətin, işkəncənin altında belə, Allahın təkliyinə və Peyğəmbərin (s) risalətinə şəhadət verəcəyəm".

Müşriklər və bütpərəstlər şəhərin bir guşəsində bir meydana toplaşmışdılar. Camaatın sayı getdikcə artırdı. Əlində şallaq meydanın ortasında duran Üməyyə birdən bağırdı: "Bilalı gətirin!"

İki nəfər əl-ayağı kəndirlə möhkəm bağlanmış bir qaradərili qulu sürüyə-sürüyə meydana gətirdi. Sonra başqa bir kəndirlə onun əllərini bağladı və müşriklərdən bir neçəsi o kəndirin ucundan tutdu. Bu zaman Üməyyənin göstərişi ilə məmurlar meydanın ətrafında dövrə vurmağa başladılar. Onlar o qaradərili qulun bədənini daş-kəsəyin üzərində sürüdülər. Üməyyə də bir tərəfdən bağıra-bağıra Bilalın taqətdən düşmüş bədəninə şallaq vururdu.

Bir gün müşriklərdən biri gördü ki, Bilal bir bütün üstünə tüpürüb onu təhqir edir. Bu xəbəri Üməyyəyə çatdırdılar. Bunu eşidəndə onun Bilala qarşı olan kin-küdurəti daha da artdı.

Hələ əvvəlki işkəncələrin yerləri sağalmamışdı ki, anbaan əzab çəkmiş bədənində təzə yaralar əmələ gəlirdi. O vəziyyətdə qurumuş və çatlamış dodaqları arasından yalnız bu iki kəlmə eşidilirdi:

"Əşhədu ənla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən Rəsulullah..."

Bilalın işkəncəsi zamanı kimsə qəfildən camaatın arasından qışqırdı: "Üməyyə, səbir et!" Üməyyənin işarəsi ilə işkəncə verənlər əl saxladılar. Bir kişi sürətlə camaatın arasından keçib, tamaşaya durmuş müşriklərin izdihamını yardl, qaça-qaça özünü Üməyyəyə çatdırdı və dedi: "Bu qulu öldürmə. Mən onu səndən çox yaxşı qiymətə alaram". Üməyyə bir qədər fikrə getdi. O, kişiyə bir nəzər saldı və sonra Bilala baxıb dedi: "Artıq bu yarıcan və ədəbsiz qul mənim işimə yaramaz. Götür sənin olsun, pulunu ver, apar". O kişi dərhal özü ilə gətirdiyi pul kisəsini Üməyyəyə verdi və əzab çəkmiş qulu çətinliklə öz evinə apardı. Bilal Allah Peyğəmbərinin (s) əmri ilə azad oldu.

İslamın əziz Peyğəmbəri həzrət Muhəmməd (s) minlərlə başqa qullar kimi onu da Allah yolunda azad etdi.

Müsəlmanlardan heç kəsin Bilal kimi xoş və uca səsi yox idi. O, azad olduqdan sonra Allah Rəsulunun (s) müəzzini oldu. Onun ilahi fəryadı ölmüş qəlblərə həyat bəxş edərək, şirk və bütpərəstliyin sütunlarını lərzəyə saldı.

Allah Peyğəmbəri (s) camaata öyrətdi ki, bütün insanlar tək olan Allah qarşısında bərabərdirlər. Varlı və kasıb, qara və ağdərili insanlar arasında heç bir fərq yoxdur. Allah yanında ən əziz olan bəndələr imanı çox olan bəndələrdir. Bilalın güclü imanı, parlaq qəlbi, saf ruhu və ilahi səsi var idi. O, zərif qanadlı pərvanə kimi daim Peyğəmbərin (s) müqəddəs vücudunun ətrafında dolanır, sevincindən yerə-göyə sığmırdı. O əzəmətli dövrdən yüz illər keçməsinə baxmayaraq, nə qədər ki, minarələrdən Muhəmmədin (s) adı səslənir və bu ad yaşayır, Bilalın da adı və xatirəsi müsəlmanların yaddaşında yaşayacaqdır.

Mənbələr:

Əmin Amuli, "Əyanuş-şiyə", c. 14, səh. 105-106
İbni Hişam, "Sirətun-Nəbi (s)", c. 1, səh. 381
Məhəmməd Hadi Yusifi Ğərəvi, "Məvsuətut-tarixil-islami"

Qısa tanışlıq:

Adı – Bilal
Ləqəbi – Həbəşi
Vəfat tarixi – Hicrətin 19-u, ya 20-si

İLK ZƏVVAR



Gecə idi. Kərbəlanın aydın səması həzrət Seyyiduş-şuhədanın qəbrini ziyarət etmək üçün o yerlərə gələn yüzlərlə ulduzların mehmandarı idi. Bütün ulduzlar imam Hüseynin (ə) məzlumiyyətinə ağlayır, göz yaşı tökürdü. Hərdən ulduzlardan biri biqərar olub asimandan özünü Seyyiduş-şuhədanın qəbrinə tərəf atır, Kərbəlanın geniş çöllərində qərq olurdu. Gecə öz qara xeyməsini o geniş laləzara açmışdı. Ay isə o xeymənin kənarında durmuşdu. Fərat çayı aram-aram irəliləyir, səmadakı ayın təsvirini özündə əks etdirirdi. Şəhidlərin ətri Kərbəlanın fəzasını ətirləndirmiş, Hüseyn (ə) türbətinin ətri isə bütün Neynəva çölünü bürümüşdü.

Yanmış, kül olmuş xeymələr oranı tərk edən mehmanlardan xəbər verirdi. Kiçik və al-əlvan bir qətlgah görünürdü. Ləçək-ləçək olmuş gül-çiçəklər qanına qaltan olmuşdu, amma bağbandan soraq yox idi.

Kərbəla şəhidlərinin torpağa tapşırılmasından günlər keçmişdi. Amma hələ də o ləçək-ləçək olmuş güllərin ziyarətinə heç bir zəvvar gəlməmişdi. O qəm və kədər səhrasında şəhidlərin qəbri üstünə mələklər səmadan dəstə-dəstə enir, imam Hüseynin (ə) qəbrini ziyarət etdikdən sonra qanad çalıb gedirdilər.

Onların qanadlarının səsi eşidilirdi, amma özləri görünmürdü. İffətli və pak Əhli-beytin (ə) şiələrindən, dostlarından hələ də heç bir mömin Kərbəlaya ziyarətə gəlməmişdi. Neynəva səhrası çox qərib idi.

Kərbəla yolları artıq Yezidin əsgərləri və muzdurlarının mühasirəsindən azad idi. Daha İbni Ziyadın məmurlarından əsər-əlamət yox idi və şiələr indi tutulub həbs edilmirdi.

Bir yorğun qoca kişi Ətiyyə adlı dostu ilə həzrət Seyyiduş-şuhədanı (ə) ziyarət etmək eşqilə Kərbəlaya yollanmışdı. Göz yaşı tökə-tökə həzrət Əba Abdullahın (ə) məzlumiyyətini fikirləşirdi. O, Kərbəlada öz qəhərini boşaltmaq və o torpaqda göz yaşı axıt-

maq üçün gedirdi. İmam Hüseynin (ə) uşaqlığı hələ də yadında idi. Hərdən imam Hüseynin (ə) Peyğəmbərin (s) qucağında oturduğu, Peyğəmbərin də (s) onu öpüşə qərq etdiyi vaxtları xatırlayırdı.

Cənab Cabir ibn Abdullah Ənsari (r) Peyğəmbərin belə buyurduğunu xatırlayırdı: "Hüseyn məndəndir, mən də Hüseyndənəm. İlahi!, Hüseyni sevənləri sev, ona düşmən olanlara düşmən ol". Cabir Kərbəlaya ziyarətə gedirdi və bu qərarında qəti idi. Elə ki, Cabir ibn Abdullah Fərat çayına çatdı, qüsl etdi. Sonra Kərbəla şəhidlərinin qətlgahına tərəf yola düşdü. O, ahəstə-ahəstə addımlayırdı, nəhayət ki, İmamın (ə) pak qəbrinə çatdı.

Bu zaman özünü Seyyiduş-Şühədanın (ə) ətirli məzarının üstünə atdı. O qədər novhə deyib, göz yaşı tökdü ki, huşunu itirdi. Özünə gələndə fəryad etdi: "Ya Hüseyn (ə)!" Yenə dedi: "Dost dostunun cavabını vermir". Sonra belə davam etdi: "Hüseyn can (ə)! Sən mənim cavabımı necə verə bilərsən, o halda ki, düşmənlər başını bədənindən ayırıblar... Şəhadət verirəm ki, sən Peyğəmbər oğlusan, Əliyyi-Murtəzanın və Fatimeyi-Zəhranın övladısan.

Niyə də belə olmasın, bir halda ki, nəbilərin sərvəri (s) səni bəsləmişdi və sən müttəqilərin mövlasının qucağında böyümüsən. Sən iman sinəsindən süd içib, İslamla böyümüsən. Allahın salamı olsun sənə. Şəhadət verirəm ki, sən Yəhya peyğəmbərin (ə) yolu ilə getdin".

Cabir bu ürəkyandıran sözləri dedikdən sonra Kərbəlanın digər şəhidlərini də ziyarət etdi və dedi: "Salam olsun sizlərə ki, Hüseynin yanında uyuyursunuz. Şəhadət verirəm ki, siz namaz qıldınız, zəkat verdiniz, əmr be məruf və nəhy əz munkər etdiniz. Haqq düşmənləri ilə ömrünüzün sonunadək savaşdınız. Allaha bəndəçilik etdiniz. Muhəmmədi (s) peyğəmbərliyə seçən Allaha and olsun ki, qədəm qoyduğunuz bu yolda və onun mükafatında biz də sizinlə şərikik. Çünki Allahın Rəsulundan eşitmişəm ki, buyurub: "Hər kəs bir dəstəni sevsə, onların əməllərində şərikdir".

“Muhəmmədi seçən Allaha and olsun ki, mənim və dostlarımın niyyəti Hüseyn və onun dostlarının niyyətidir”.

Sonra Cabir həzrət Əli Əkbəri (ə) ziyarət etdi və Kərbəla şəhidlərinin şərəfli məzarının kənarında iki rükət namaz qıldı.

Cənab ibn Abdullah Ənsari həzrət Rəsuli-Əkrəmin, Əmirəl-möminin (ə), imam Həsən Muctəbanın (ə), imam Hüseynin (ə), imam Zeynəlabidinin (ə) və imam Muhəmməd Baqirin (ə) xalis şiələrindən, vəfalı dostlarından idi. Ömrü bərəkətli və uzun olduğuna görə yeddi məsumun zəmanəsində yaşayaraq o ağalara xidmət etmişdi.

Cabir ibn Abdullah Ənsari kafirlərin əleyhinə olan çox döyüşlərdə iştirak etmişdi. Bütün ömrü boyu daim paklıq və ismət xanədanının (ə) köməkçisi, hamisi olmuşdu. Buna görə də Əhli-beyt (ə) xanədanı ona məhəbbət göstərib, sevmişdilər. Hətta bir gün Allah Rəsulu (s) Cabirə belə buyurmuşdu: “Övladım Muhəmməd ibn Əlini görsən, mənim salamımı ona çatdır”. Cabir də Peyğəmbərin (s) göstərişinə əməl etdi. Uzun illərdən sonra Rəsuli-Əkrəmin (s) salamını həzrət Baqirul-uluma çatdırdı.

Mənbələr:

Məclisi, “Biharul-ənvar”, c. 98, səh. 195-196
Yusifi Ğərəvi, “Məvsuətut-tarixil-islami”

Qısa tanışlıq:

Adı – Cabir
Atasının adı – Abdullah
Anasının adı – Nusəybə
Ləqəb – Ənsari

HƏYA QORUYUCUSU



O, həyətində var-gəl edirdi. Bütün vücudunu iztirab və səbirsizlik bürümüşdü. Nə edəcəyini bilmir, tez-tez dodağının altında: "İlahi, nə edim?" – deyirdi. Bu zaman qapı bərkdən döyüldü. Bir nəfər dayanmadan qapını döyür və qışqırırdı: "Qapını aç! Tez ol, qapını aç!" Qapının döyülməsindən daha da həyəcanlanaraq hövlnak darvazaya tərəf qaçdı. Qapını açanda birdən Mərvan ibn Həkəmin qəzəbli sifəti ilə qarşılaşdı. Bir anlıq hər ikisi donub qaldı. Nəhayət, Mərvan qəzəblə bağırdı: "Sən Kəsir ibn Sələtsən?" O cavab verdi: "Bəli, özüməm".

Mərvan dedi: "Müaviyə ibn Əbu Sufyan mənə yazıb ki, sənin evini müsadirə edim, özünü də evdən bayıra atım".

Bərk qorxmuş Kəsir soruşdu: "Axı nə üçün belə əmr verib?" Mərvan dedi: "Müaviyə məktubunda yazıb ki, sənin borcun var. Sənə üç gün möhlət verib, əgər borcunu ödəməsən, evini əlindən alacağam".

Mərvan üç gündən sonra qayıdacağını bildirib getdi. Amma Kəsir fikirdən başını itirmişdi. Onun borcu çox idi və heç kim də ona bu qədər borc pul verməzdi. Bir müddət beləcə keçdi. Qəfildən Kəsirin yadına Əlinin (ə) ən səxavətli dostlarından biri düşdü. Tələsik evdən çıxdı. Kömək istəmək üçün Qeys ibn Sə'd Ənsarinin yanına getdi. Qeys öz din qardaşını gördükdə dedi: "Nə üçün belə bikef və narahatsan?" Kəsir başına gələn hadisəni Qeysə danışdı. Qeys ondan soruşdu: "Çətinliyini həll etmək üçün sənə nə qədər pul lazımdır?" Kəsir dedi: "Üç min dirhəm kifayətdir". Qeys üç min dirhəmi Kəsirə verib, onu bu üzücü nigarançılıqdan xilas etdi. Kəsir ibn Sələt Qeysə çoxlu təşəkkür etdikdən sonra borc sahibinin yanına yollandı və bütün borcunu ödədi. Bu hadisədən bir müddət keçəndən sonra Kəsir üç min dirhəmi Qeysə qaytarmaq istədi. Amma Qeys comərdcəsinə dedi: "Mən hədiyyə etdiyim şeyi geri almıram".

Qeys ibn Sə'd Ənsari Əlinin (ə) vəfalı dostlarından və ixlaslı şiələrindən idi. O, möminlərin Əmirinin (ə) vilayətini ilk qəbul edənlərdən olub, xəlifəyə beyət etmədi. Qeys ibn Sə'd Əli (ə) və onun övladlarının xeyirxahı id, ölənədək də xeyirxahlığında sabitqədəm qaldı. O, din düşmənləri ilə mübarizə aparan şiələrdən idi. Sə'd sonralar Əli (ə) tərəfindən Misirə hakim təyin edildi. Müaviyənin hiyləsi ilə Qeysə vurulan xəyanət töhmətlərini Əli (ə) eşitdikdə, ona məsləhət gördülər ki, Qeysi Misirin hakimliyindən azad etsin. İmam (ə) cavabında buyurdu: "Allaha and olsun ki, mən Qeys haqqqında deyilən bu sözlərə inanmıram". Möminlərin Əmiri (ə) öz şiəsini hamıdan yaxşı tanıyırdı, onun məqam-mənzilətindən də agah idi.

O Həzrət (ə) Qeysi Misirə hakim göndərəndə məktubunda oranin əhlinə belə xitab elədi: "Mən Qeys ibn Sə'd Ənsarini sizə əmir göndərdim. Onunla birgə olun və haqqı bərpa etməkdə ona kömək edin... O elə kəslərdəndir ki, mən onun məsuliyyətindən razıyam".

Cənab Qeys ibn Sə'd daim Əlinin (ə) imamət və vilayətini müdafiə edib heç zaman onun düşmənlərindən qorxmadı. Bir gün Müaviyə Qeysdən tələb etdi ki, hamı kimi o da Əlidən (ə) uzaqlaşsın. Qeys Müaviyənin cavabında yazdı: "Ey büt oğlu büt! Əlini (ə) tərk edib, sənə itaət etməyimi istəyirsən? Hamının Əlinin (ə) ətrafından dağılıb sənə qoşulması ilə məni hədələyirsən? And olsun o Allaha ki, Ondan başqa mə`bud yoxdur, heç vaxt sənin-lə həmrəy olmaram. Çünki sən Əlilə (ə) ədavətdəsən. Sənə əsla tabe olmaram. Çünki sən Əli (ə) ilə düşmənisən. Heç bir zaman Allahın düşmənini Allahın vəlisindən və şeytanın ordusunu Allah ordusundan üstün tutmaram".

Qeys ibn Sə'd Əliyə (ə) sevgisini həmişə ən gözəl ifadələrlə bildirərdi. Bir gün Qeys Əliyə (ə) müraciətlə dedi: "Ey möminlərin Əmiri (ə) !Yer üzündə hamıdan çox səni sevirəm. Çünki sən

bizim parlaq ulduzumuzsan ki, onun vasitəsilə hidayət oluruq! Etibarlı pənahgahımızsan ki, ona sığınırıq. Səni itirsək, yer-göy başımıza tökülər. And olsun Allaha, əgər Müaviyəni öz məkr və hiyləsi ilə baş-başa buraxsan, Misir ölkəsini müharibəyə sürükləyib orada fəsad törətmək istəyəcək...”

Riyakar müşriklərin Qeysi Əlinin (ə) yanında pisləməsinə bamayaraq, o iki böyük şəxsiyyətin bir-birinə olan məhəbbəti azalmadı. Qeys ömrünün son anlarınadək Əli ibn Əbu Talibin (ə) sadiq şiəsi olaraq qaldı və daim şiə olması ilə fəxr etdi.

Mənbələr:

Tusi, “Əl-əmali”, səh. 716
Səqəfi, “Əl-ğarat”, səh. 129

Qısa tanışlıq:

Adı – Qeys
Atasının adı – Sə’d
Qəbiləsinin adı – Xəzrəc
Ləqəbi – Ənsari
Şəhadət tarixi – Təxminən, hicri 59-cu il
Dəfn yeri – Bəqi qəbiristanlığı

HƏQİQƏTİN QƏLƏBƏSİ



Şəhər bazarı adəti üzrə izdihamlı və səs-küylü idi. Hər kəs gəlir əldə etmək üçün bir iş götürdü. Alverçilərin başı öz mallarını satmağa o qədər qarışmışdı ki, ətrafı belə görmürdülər. Birdən bazarın ortasında üz-gözü toz-torpağa bulaşmış, pərişan görkəmli bədəvi bir ərəb peyda oldu. O, cavan və gözəl bir atı arxasıyca çəkə-çəkə gətirirdi. At nə qədər yaraşıqlı və baxımlı idisə, sahibi bir o qədər yöndəmsiz idi. Bədəvi ərəbin ətrafa göz gəzdirməsindən nə istədiyi yaxşı başa düşülürdü. O, güzəranını keçirmək üçün cilovunu əlində tutduğu atı o izdihamlı bazarda satıb geri qayıtmaq istəyirdi. Elə bir alıcı axtarırdı ki, insaflı və halal olsun, onun istəyi ilə razılaşsın. Bədəvi ərəbin arzusu yalnız atı öz istədiyi qiymətə satmaq idi. İstəyirdi atı alan sərt adam olmasın ki, müamilə tam razılıqla bitsin və pulu tam alsın. O yavaş-yavaş yeriyərək o tərəf-bu tərəfə boylanır, ətrafında ürəyincə olacaq müştərini tapmağa çalışırdı.

Bu zaman Allah Rəsulu (s) oradan keçirdi ki, birdən gözü həmin kişiyə sataşdı. Həzrət (s) ona yaxınlaşdı. Salamlaşıb halını soruşduqdan sonra buyurdu: "Atını satmağa gətirmisən?" Kişi dedi: "Bəli. Atıma müştəri axtarıram". Allah Rəsulu (s) buyurdu: "Atı neçəyə satırsan?" Peyğəmbəri (s) tanıyan ərəb ürəyində tutduğu qiyməti ona dedi. Hörmətli Peyğəmbər (s) buyurdu: "Bu qiymətlə razıyam. Amma burada bir az gözlə, gedib evdən o məbləği gətirim". Kişi dedi: "Burada gözləyirəm, get pulu gətir". Sonra Peyğəmbər (s) evə tərəf yollandı, bədəvi ərəb də bir kölgəlikdə oturub Allah Rəsulunun (s) qayıtmasını gözləyirdi. Peyğəmbəri (s) uzaqdan güdən bir neçə münafiq o Həzrət (s) getdikdən sonra dərhal atsatan ərəbə yaxınlaşıb istehzalı təbəssümlə, riyakarcasına dedilər: "Salam, ay kişi! Nə gözəl və cavan atın var? Yəqin qiyməti də çox bahadır?" Kişi dedi: "Bəli, bu, mənim atımdır. Amma əgər almaq istəyirsinizsə, deməliyəm ki, mən artıq bu atı Muhəmmədə (s) satmışam".

Elə bu cavabı gözləyən münafiqlər dedilər: “Ucuz satmayasan, ha!” Kişi atını satdığı qiyməti onlara dedi. Münafiqlər heyrətə gəldilər və dedilər: “Bu nə işdir tutmusan?! Bu nə qiymətdir ki, sən Muhəmmədə (s) demisən?! Nə üçün atını belə ucuz satmısan?! Malını çöldən tapmısan?!” Münafiqlər sözləri ilə at satan kişini o qədər danladılar ki, kişi etdiyi müamilədən peşman oldu və dedi: “Bəs mən nə edim? Muhəmməd (s) gəlsə, ona nə cavab verim?” Onlar dedilər: “Bu ki, çətin iş deyil. Gələndə deyərsən ki, mən sənlə müamilə etməmişəm. Sözünü geri götür”. İmanı zəif olan satıcı onların sözünə aldanıb dedi: “Bəli, yaxşı təklifdir. Bununla da, mən atımı bazarda daha baha qiymətə sataram”.

Münafiqlər Peyğəmbərə (s) əziyyət etmək üçün hər yola əl atırdılar və bacardıqları qədər ona zərbə vururdular. Bu dəfə də onlar fürsətdən istifadə edib Həzrətin (s) halal istəyinə çatmasının qarşısını almağa çalışdılar.

Münafiqlər ərəbi Peyğəmbərlə (s) müamilə etmək fikrindən daşındırdıqdan sonra bir kənara çəkilib hadisənin ardını izləməyə başaldılar. Çox çəkmədi ki, Allah Rəsulu (s) danışılmış məbləğ ilə qayıtdı. O, pulu satıcıya uzadıb dedi: “Al, bu da sənin at üçün istədiyin məbləğ”. Amma bədəvi ərəb həyasızcasına etiraz etdi: “Sən hansı müamilədən danışırsan? Mən bu atı sənə satmamışam ki, pulunu da alım?” Peyğəmbər (s) mehribanlıqla buyurdu: “Bir az bundan əvvəl özün atı mənə satmağa söz verdin və biz müamilə etdik”.

Bu zaman münafiqlər şəhər bazarına şayiə yaydılar ki, Muhəmməd (s) satıcı kişi ilə mübahisə edir. Tezliklə münafiqlərin vəsvəsəsi səbəbilə şəhər camaatı Peyğəmbərin (s) ətrafına toplaşdılar.

Peyğəmbərin həqiqi davamçılarından olan Xuzeymə ibn Sabit Ənsari hadisədən xəbər tutan kimi özünü bazara çatdırdı, izdihamı yarıb Peyğəmbərə (s) yaxınlaşdı və dedi: “Ey Allahın Rəsu-

lu! Mən şahidlik edirəm ki, sən bu kişinin atını almısan". Bədəvi ərəb dedi: "Sən burada olmadığın halda necə şahidlik edirsən?" Peyğəmbər (s) Xuzeyməyə buyurdu: "Sən bizi görmüşdün?" Xuzeymə cavab verdi: "Xeyr, ey Rəsulullah (s)! Amma əminəm ki, onu almısınız. Necə ola bilər ki, mən sizin Allah tərəfindən gətirdiyinizi təsdiq edim və deyim ki, düzgün və həqiqətdir, amma bu imansız kişi barədə dediyiniz sözü təsdiq etməyim?"

Peyğəmbər (s) Xuzeymənin sözünün iman və yəqin nəticəsində olduğunu gördükdə buyurdu: "Ey Xuzeymə! Sənin şəhadətin iki nəfərin şəhadətinə bərabərdir".

Beləliklə də, münafiqlərin planı pozuldu və həmişəki kimi yenə də haqq qalib gəldi.

Mənbələr:

Kuleyni, "Usuli-Kafi", c. 7, səh. 410
"Usdul ğabə", c. 2, səh. 114
Yusifi Ğərəvi, "Məvsuətut-tarixil-islami"

Qısa tanışlıq:

Adı – Xuzeymə
Atasının adı – Sabit
Ləqəbi – Zuş-Şəhadəteyn
Kunyəsi – Əbu Əmarə
Doğum tarixi – Hicrətdən 20 il əvvəl
Şəhadət yeri – Siffeyn döyüşü

GÜNƏŞ MEHMANDARI



Yəsrib camatı evlərindən çıxıb, şəhər kənarında kiminsə yolunu gözləyirdi. Onlar Muhəmmədin (s) dininə iman gətirmiş, qəlbləri Allah Rəsulunun (s) məhəbbəti ilə dolu idi. Yəsrib müsəlmanları bilirdilər ki, Peyğəmbərləri (s) Məkkədən hicrət edib onların şəhərinə gəlməkdədir. Buna görə də o Həzrəti (s) qarşılamaq üçün dəqiqələri sayırdılar.

Heç kim danışmırdı. Hamı Peyğəmbəri (s) və yoldaşlarını görmək üçün gözünü heyrətlə uzaqlara dikmişdi. Cavanlar xurma ağaclarının başına çıxaraq gözətçilik edir, Peyğəmbərin gəlişini ilk olaraq camaata özləri xəbər vermək istəyirdilər. Dəqiqələr ağır keçirdi. Qəfildən gözətçilərdən biri qışqırdı: "Allahu Əkbər... Allahın Rəsulu (s) bizə tərəf gəlir..."

Müsəlmanlar sevinclərindən şövq ilə Peyğəmbərə (s) tərəf qaçdılar, Həzrəti (s) parlaq üzük qaşı kimi dövrəyə aldılar. İslam Peyğəmbəri (s) tam əmniyyət və təhlükəsizliklə Yəsrib şəhərinə daxil oldu.

Rəsuli Əkrəm (s) dəvənin üstündə, camaatın önündə hərəkət edir, Yəsribin sərvətlilərindən və böyüklərindən hər biri isə ayrı-ayrılıqda Allah Rəsulunun hüzuruna yetişərək o Həzrətdən: (s) "Ey Allahın Rəsulu, icazə verin sizə mehmandar olaq, bizim evimizə təşrif buyurun", – deyə xahiş edirdilər. Peyğəmbər (s) Yəsrib müsəlmanlarının israrını gördükdə buyurdu: "Dəvəmin ixtiyarı Allahın əlindədir, harada dayansa, orada qalacam." Həzrətə (s) müştaq olanlar onun ardınca gedir, Yəsrib əhalisindən kimin evinin qarşısında dəvənin dayanacağını görmək istəyirdilər. Bir müddət sonra Allah Rəsulunun (s) dəvəsi şəhər küçələrindən keçərək ən fəqir bir möminin evinin qabağında diz çökdü. O xoşbəxt mənzil Əbu Əyyub adlı şəxsə məxsus idi. Ən böyük iftixara nail olmuş Əbu Əyyub hövlnak Peyğəmbərə (s) tərəf qaçdı, xoş üzlə və böyük məhəbbətlə onu qarşıladı.

Cənab Əbu Əyyubun hər iki gözünün nurunu itirmiş bir anası vardı. O, oğlundan soruşdu: "Nə olub? Bu nə səs-küydür?" Əbu Əyyub dedi: "Anacan! Allah Rəsulu (s) indicə bizim evimizə təşrif gətirib, bu evdə dincələcək". Bu xəbərdən çox şad olan ana dedi: "Kaş gözlərim görəydi və Peyğəmbərin (s) çöhrəsini yaxından ziyarət edəydim". Həzrət (s) bu sözləri eşitcək mübarək əlini onun gözlərinin önünə çəkdi və elə o an qadının gözləri şəfa tapdı. Peyğəmbərin (s) möcüzəsi camaatı daha da sevindirdi. Yəsrib küçələrini təkbir sədası bürüdü.

Əbu Əyyubun varı-yoxu bir keçisi vardı ki, onu da Həzrətin (s) ayaqları altında qurban kəsdi. O, Allah Rəsulunu layiqincə qarşıladı, son dərəcə ehtiram və təvazö ilə o Həzrətə (s) qulluq etdi. Allahın ən yaxşı və ən şərəfli bəndəsinin mehmandarı olan Əbu Əyyub tam ixlas və səmiyyətlə Peyğəmbərin (s) xidmətində durdu.

Peyğəmbərin (s) vücudunun bərəkətindən Yəsrib şəhərinin adı dəyişilib "Mədinətun-Nəbi" (Peyğəmbər (s) şəhəri), bu şəhər isə rəhmət və bərəkət yağışında qərq oldu. O zaman Əbu Əyyub evinin qapısını camaatın üzünə açdı ki, Allah Rəsulu ilə bir süfrədə oturmağa müştaq olanlar onun mənzilinə daxil olsunlar. O gün Əbu Əyyubun evi, əziz Peyğəmbərin (s) ziyarətinə təşnə olan müsəlmanlarla dolu idi. Peyğəmbərin (s) yeməyi bərəkətli idi. Bütün qonaqlar o yeməkdən yeyir və doyurdular. Allah Rəsulu (s) da Əbu Əyyub Ənsariyə dua edirdi.

Cənab Əbu Əyyub Allahın ona verdiyi bütün nemətlərin dəyərini bilir, tək olan Allaha şükür edirdi. O, Mədinə günəşinin mehmandarı idi. Elə bir günəş ki, ölmüş qəlblərə həyat və ümid verir. O günə qədər heç bir müsəlman belə böyük iftixara nail olmamışdı.

Get-gedə Mədinə İslam dünyasının ən qüdrətli mərkəzinə çevrildi. Elə bir mərkəz ki, oradan bütün İslam ölkələri idarə olunurdu və Allah Rəsulu (s) da şəxsən onun rəhbəri idi.

Əbu Əyyub Ənsari Peyğəmbərə (s) və onun tovhid dininə iman gətirdiyi andan etibarən heç zaman əqidəsində şəkk etməmişdi. O, daim Allah Rəsulunun (s) hami və köməkçisi idi. Bir gün əziz Peyğəmbər (s) ona belə dua etdi. "Ey Əbu Əyyub! Pislik və çirkinliklərdən uzaq olasan. Ölüm, əsarət, zillətdə məhbus olmaq kimi bütün zahiri pisliklər; cüzam, dəri xəstəlikləri və bu kimi zəliledici xəstəliklər, həmçinin dinsizlik, iman zəifliyi, əqidəsizlik kimi mənəvi pisliklər səndən uzaq olsun".

Cənab Əbu Əyyub daim Allah Rəsulunun (s) və pak Əhli-beytin (ə) haqqını müdafiə edir, bu yolda heç bir təhlükədən qorxmurdu.

Vəhy məktəbinin yetişdirməsi olan Əbu Əyyub əqidəsini qorumaq üçün cihad etdi və bütün döyüşlərdə rəşadət göstərdi. Onu Peyğəmbərin (s) və Əmirəl-möminin (ə) ən yaxşı əshablarından saymaq olar.

Əbu Əyyubun nəzərində vilayətsiz həyatın mənası yox idi və insanın hidayətini, səadətini məsum imamlara olan məhəbbətdə görürdü. Əbu Əyyub Ənsari Əhli- beytin (ə) məhəbbəti ilə yaşadı və Allah Rəsulunun (s) xanədanına olan sevgisiylə dünyadan köçdü.

Mənbələr:

Qummi, "Səfinətul-bihar", c. 1, səh. 51
Əmini, "Əl-qədir", c. 9, səh. 125

Qısa tanışlıq:

Adı – Xalid
Atasının adı – Zeyd
Kunyəsi – Əbu Əyyub
Vəfat tarixi – Təxminən hicrətin 50-ci ili
Dəfn olunduğu yer – Konstantinopol (İstanbul)

QÜRUB ANI



Mədinə qəm-qüssəyə, matəmə qərq olmuşdu. Hamı Allah Rəsuluna (s) göz yaşı tökürdü. Müsəlmanlar mehriban günəşin qürubuna ağlayır, baş-gözlərinə döyürdülər. İslam Peyğəmbərinin (s) vəfatı möminlər üçün inanılmaz idi. Onların sinələrinə çox böyük qəm dağı çəkilmişdi, bir yerdə qərar tuta bilmirdilər. Allah Rəsulunun (s) canişini olan həzrət Əli (ə) o Həzrətin (s) müqəddəs vücudunu dəfnə hazırlayırdı. Hamıdan daha dərdli olan Əli (ə) qəm-qüssə yükünü öz çiyinlərinə çəkmişdi. O ağır dəqiqələrdə Peyğəmbər (s) Əhli-beytinin (ə) gözləri yaşlı, qəlbləri hüzünlü idi. Onlar Peyğəmbəri (s) torpağa tapşırmaqdan və əzadarlıqdan başqa heç bir şey düşünmürdülər. Peyğəmbər (s) dünyadan getsə də, İslam dünyası canişin və rəhbərsiz deyildi. Əli (ə) müsəlmanlara rəhbər olmalı, onları səadət və tovhidə hidayət etməli idi. Müsəlmanlar da öz növbələrində o Həzrətə (ə) tabe olmalı, rəhbər və Peyğəmbərin (s) canişini kimi ona ehtiramla yanaşmalı idilər. O anlarda qəfildən şəhərə qəribə bir sükut çökdü, küçələr boşaldı, camaat fikrə getdi və bir-birilə pıçhapıça başladı.

Peyğəmbərin (s) əzasında qəm-qüssəyə batan və göz yaşı tökənlərdən biri də Cənab Hubab bin Münzər idi. O, illərlə Allah Rəsuluna xidmət etmək şərəfinə nail olmuşdu. Buna görə də Həzrətin (s) vəfatı onun üçün çox dözülməz idi. Hubabın nəzərindən heç nə qaçmırdı, o, camatın bütün rəftar və əməllərinə fikir verirdi. O ağır sakitlik və insanların şayiələri onun diqqətini cəlb etdi. Buna görə də məsələdən xəbər tutmaq üçün onlara yaxınlaşdı. Mədinə əhli qəribə sözlər danışırdı. O həssas dəqiqələrdə şəhər camaatından bəzisi bir yerə toplaşıb deyirdi: "Bir halda ki, Allah Rəsulu (s) dünyasını dəyişib, gərək onun yerinə canişin seçək, çünki müsəlmanlar xəlifə və rəhbərsiz yaşaya bilməzlər".

Hubab ibni Münzər bu yersiz sözləri Peyğəmbərlə (s) dostluq iddiasında olan bir dəstədən eşitdi.

O azğın qrup əsassız, boş sözlərlə həsəd və kin atəşini yavaş-yavaş alovlandırırdılar. İmanı süst, düşüncəsi dar olan şəxslər də

azğınların sözlərini təsdiq edərək dedilər: “Düzdür, biz xəlifəsiz yaşaya bilmərik. Əgər bir kəs xəlifə seçilsə, ona beyət edərik”. Bu zaman şəhər camaatının bir dəstəsi Səqifə adlanan məntəqədə toplaşıb dedi: “Biz gərək içimizdən bir nəfəri xəlifə–Peyğəmbərin (s) canişini seçək, bütün camaat da onunla beyət etsin”. Sonra xəlifə seçmək üstündə mübahisələr başlandı. Bir nəfər dedi: “Mən Peyğəmbər (s) canişini olmağa hamıdan daha layiqəm. Çünki o Həzrət (s) Məkkədən Mədinəyə hicrət edəndə onunla idim”. Başqa biri isə belə dedi: “Mən sizin hamınızdan daha ləyaqətliyəm. Çünki mən Peyğəmbərlə (s) qohumam...” Bu məclisdə hərə öz iddiası ilə çıxış etdi. Peyğəmbəri (s) dəfn etmək heç yadlarına da düşməyən bu qrup dedi: “İndi xəlifə seçmək üçün ən münasib vaxtdır. Çünki Əli (ə) Peyğəmbərin (s) dəfni ilə məşğuldur. O özünə gəlincə, biz Allah Rəsulunun (s) canişinini seçər və ondan da yeni xəlifəyə beyət etməsini istəyərik”.

Hubab ibn Münzər onların planından xəbərdar olduqda, qərara aldı ki, bu ədalətsizliyə etiraz etsin və ikitirəlik salanlarla mübarizə aparsın.

Hubab ibn Münzərin sözlərilə rüsvay olan və onun sualları-na verməyə cavabları olmayan münafiqlər həyasızlıq və ədəbsizliklə dedilər: “Ey Hubab, həddini bil, belə sözlər danışma, burada səndən də böyüklər var”.

Hubbab dedi: “Mən Əli ibn Əbu Talibdən (ə) böyük və şərəfli insan tanımıram. Rəghbərlik və başçılıq yalnız ona yaraşır. Nə üçün xilafəti qəsb etmək istəyirsiniz? Əlinin (ə) haqqını oğurlamaq üçün niyə bu qədər hərissiniz? Allaha and olsun ki, sizləri öz qarşımda bir dəstə münafiq görürəm. Peyğəmbərin (s) canişini və vəsisi olmaq sizin haqqınız deyil, bu məqama layiq də deyilsiniz“.

Hubab ibn Münzər daim Əlinin (ə) haqqını müdafiə edir, islami dəyərləri qorumaq yolunda bir an belə yorulmaq bilmirdi. Hubab Allah Rəsulunun (s) ən yaxşı səhabəsi və Əli bin Əbu Talibin (ə) ən ixlaslı şiələrindən idi. O bir çox müharibə və çətinliklərdə Peyğəmbərin (s) yanında olmuşdu. Əmin, təqvalı, şücaətli, natiq

bir şiə idi. Əhli-beytin (ə) məhəbbətilə yaşayır, Əmirəl-möminin (ə) vilayəti ilə üns bağlamışdı.

Nəhayət ki, o, xilafət qəsbkarlarının əzab-əziyyətinə dözərək Peyğəmbər ailəsinin vilayət və məhəbbəti ilə əbədiyyət dünyasına tələsdi.

Mənbələr:

Əl-umamu vəl-muluk
Təbəri, "Tarix" c. 3 səh. 220
İbni Əsir, "Əl-kamil", c. 3, səh. 77

Qısa tanışlıq:

Adı – Hubab
Atasının adı – Münzər
Ləqəbi – Sahibnəzər
Vəfat tarixi – Təxminən hicri 20 -ci il

İLDIRIM FƏRYADI



Məkkədən kənarda, Uhud adlı bir yerdə İslam qoşunu ilə düşmən ordusu bir-birinin qarşısında səf çəkib durmuşdu. Hər iki qoşun təkbətək ağır döyüşə hazırlaşırdı. Bədr döyüşündə ağır itkilər verərək zəlilcəsinə məğlub olan kafir və müşriklər öz ölülərinin intiqamını almaq, müsəlmanları məhv etmək, Uhudda onların taleyini birdəfəlik həll etmək istəyirdilər. Uhudda iştirak edən müşriklərin çoxu Bədrdə öldürülənlərin yaxınları idi. Onlar intiqamdan başqa bir şey fikirləşmirdilər.

Bədr döyüşünə nisbətən müsəlmanlar bu savaşa daha çox hazırlaşmışdılar. Onlar müşrik Məkkə başçılarını və onların tərəfdarlarını məhv etmək istəyirdilər. Müsəlman qoşunu arasında Əbu Ducaneyi Ənsari adlı mömin bir cəngavər də var idi. Dindar, təqvalı və şücaətli olan bu kişi Allah Rəsulunun (s) ən yaxşı səhabələrindən sayılırdı. Allah Rəsulunun (s) da ona çox məhəbbəti vardı və onun bacarığına yaxşı bələd idi. Cənab Əbu Ducanə mühüm tapşırıqları ən gözəl şəkildə yerinə yetirir, onların öhdəsindən müvəffəqiyyətlə gəlirdi.

Uhud döyüşündə vuruşdan əvvəl müsəlman qoşununun sərkərdəsi olan Rəsuli Əkrəm (s) mübarək qılıncını qınından çıxartdı. Onu başı üzərinə qaldırıb əshabına buyurdu: "Kim bu qılıncın haqqını ödəyər?" Bir çox müsəlmanlar: "Ey Allahın Rəsulu (s), biz bu qılıncın haqqını ödəyərik" – dedilər.

Bu zaman Əbu Ducaneyi Ənsari yerindən qalxıb dedi: "Ey Allahın Rəsulu (s)! Onun haqqı nədir?" Peyğəmbər (s) buyurdu: "Bu qılıncın haqqı odur ki, əyilənədək düşmənləri onunla öldürəsən". Əbu Ducanə dedi: "Ey Allahın Rəsulu (s)! Allaha təvəkküllə mən onun haqqını yerinə yetirməyə hazıram". Həzrət (s) öz qılıncını Əbu Ducaneyi Ənsariyə verdi. Alnına qırmızı bağlamış Əbu Ducanə Peyğəmbərin (s) qılıncını aldı, atına mindi və döyüşə hazırlaşdı. O, böyük qürurla düşmən qarşısında hərəkət edib, qılıncını havada oynatdı. O vaxta qədər müsəlmanlardan heç kəs onu belə məğrur və təkəbbürlü görməmişdi.

İslam Peyğəmbəri (s) buyurdu: “Dinsiz və müşriklər qarşısında bu əməl çirkin deyil. Amma bundan başqa yerlərdə Allah qürur və təkəbbürü sevmir”.

Döyüşün başlanması ilə Əbu Ducanə düşmən qoşununa hücum edib, özünü qoşuna vurdu. O, Rəsulullahın (s) qılıncı ilə düşmənləri bir-birinin ardınca cəhənnəmə göndərir və deyirdi: “Mən o kəsəm ki, məhbubum Allah Rəsulu (s) mənimlə dağın ətəyində xurmalıqların kənarında peyman bağladı ki, əsarət altında yaşamayıb öz qılıncımla düşməni məhv edim”.

Uhud döyüşü beləcə davam edirdi. Müsəlman döyüşçülərindən olan bir dəstənin səhlənkarlığı, həmçinin Peyğəmbərin (s) əmrindən çıxması müşriklərin qalib gəlməsinə və İslam əsgərlərindən çoxunun şəhid olmasına səbəb oldu. Bu zaman fürsət güdən düşmənlər Peyğəmbəri (s) öldürmək üçün ona yaxınlaşmaq istədilər. Amma Əli (ə) və Əbu Ducaneyi Ənsarinin rəşadəti onların planını pozdu. O anlarda Əbu Ducanə pərvanə kimi Həzrətin (s) müqəddəs vücudunun ətrafına dolanıb, onu müdafiə edirdi. Halbuki digər müsəlmanlar döyüş səhnəsini tərk edib, qaçmağı qalmaqdan daha üstün tutmuşdular. Döyüşün getdikcə şiddətlənməsinə baxmayaraq, o iki cəngavər cihaddan əl çəkmirdi.

Uhud döyüşündə müsəlmanlardan bəzisinin qaçdığını görən Rəsuli Əkrəm (s) üzünü Əbu Ducanəyə tutub buyurdu: “Qövmünün necə qaçdığını görürsənmi?” Əbu Ducanə dedi: “Bəli, görürəm”. Həzrət (s) buyurdu: “Sən də onlara qoşul. Nə üçün onların yanına getmirsən?” Əbu Ducanə ərz etdi: “Ya Rəsulullah! Mən səni tək qoymaq üçün beyət etməmişəm”. Allah Rəsulu (s) buyurdu: “Sən azadsan! Gedə bilərsən”. Əbu Ducanə dedi: “Allaha and olsun ki, mən Qureyşi sevindirəcək bir iş görüb, sizdən heç vaxt ayrılmaram. Sizə nə olacaqsa, qoy mənə də olsun”.

Sözündə və rəftarında Əbu Ducanənin sədaqətini görən Peyğəmbər (s) buyurdu: “Allah sənə yaxşı bir mükafat versin”.

Nəhayət, Əli (ə), Əbu Ducaneyi Ənsari, həmçinin başqalarının rəşadəti və mübarizəsi ilə Uhud döyüşü sona çatdı. Cənab Əbu

Ducanə o ilahi imtahandan başıuca və qalib çıxaraq, iman və sədaqətini sübut etdi. Uhud döyüşündən bədənində çoxlu yaralar qalsa da, qəlbində həsrət və peşmançılıq yox idi. Ən əsası isə o, Peyğəmbərin (s) yanında xəcalətli deyildi.

Yalnız beyət etmək və kəlmeyi-şəhadəti demək müsəlman olmaq üçün kifayət deyil. Əqidə uğrunda canından keçmək İslamın ən mühüm hədəflərindəndir. Elə həqiqi möminlər ilə əqidəsiz möminlər də məhz döyüş və müharibə meydanlarında seçilirlər.

Əbu Ducaneyi Ənsari o müsəlmanlardan idi ki, daim öz pak etiqadı və məqsədi uğrunda canından, malından keçirdi, töhmət vuranların tənələrindən qorxmurdu. O, bir çox döyüşlərdə fəal iştirak etmiş, iftixarla öz din və əqidəsini qorumuşdu. Dəfələrlə bir-birinin ardınca imtahan vermiş və hər dəfə də daha çox müvəffəqiyyət qazanmışdı.

Nəhayət, Əbu Ducaneyi Ənsari "Yəmamə" döyüşündə düşmənin əli ilə şəhid edildi.

Mənbələr:

Təbəri, "Tarixul-umamu vəl-muluk", c. 2, səh. 513
İbn Hişam "Sireyi Rəsulullah", c. 3, səh. 73

Qısa tanışlıq:

Adı – Səmmak
Kunyəsi – Əbu Ducanə
Atasının adı – Xəraşə
Şəhadət tarixi – Hicrətin 12-cu il, Yəmamə döyüşü

MÜNDƏRİCAT

QÖNÇƏ TƏBƏSSÜM 3
ŞƏFQƏTLİ DAYƏ 7
AZADƏ XANIM 11
ANALIQ MƏHƏBBƏTİ 15
MƏHƏBBƏTIN KÖLGƏSİ 19
BÜLLUR QƏLB 23
UHUDUN SƏRDARI 27
ŞƏHADƏT PƏRVAZI 31
MƏRD QEYRƏTI 35
UÇMAQ EŞQI 39
BEHİŞT PƏNAHGAHIN 43
LALƏ KİMİ 47
DƏRYANIN HƏMDƏMI 51
QOCA FARS 55
İLK TƏNHA SÜVARİ 59
İBRAHİM KİMİ 63
VƏHY NƏSİMİ 67
QARA PƏRVANƏ 71
İLK ZƏVVAR 75
HƏYA QORUYUCUSU 79
HƏQİQƏTİN QƏLƏBƏSİ 83
GÜNƏŞ MEHMANDARI 87
QÜRUB ANI 91
İLDIRIM FƏRYADI 95

